www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 avqust 2015-ci il Çərşənbə axşamı № 174 (6202) Qiyməti 40 qəpik

**Xəbər**

## 70 yaşlı hakim boğazını kəsdi

yazısı səh.14-də

**Gündəm**

### Prezident jurnalistin ölüm işini öz nəzarətinə götürdü



Rasim Əliyevin anasından Cavid Hüseynova ağır suçlama; **Teyfurə Əliyeva:** "Cavid özü Rasimi aldadıb, görüşə çağırdı"; ictimaiyyət nümayəndələri toplantı keçirdilər

yazısı səh.5-də

### Bağlanan banka borcu olanlar krediti hara ödəməlidir?

yazısı səh.4-də

*Sülhəddin Əkbər:*

### "ABŞ-Türkiyə razılaşması bölgədə dəngələri tamamilə dəyişib"

yazısı səh.9-da

### Müsavat Məclisinin növbədənkənar sessiyası təyin edildi

yazısı səh.10-da

### Müxalifət iqtidarla parlament seçkilərini müzakirə etmək istəyir

yazısı səh.9-da

### Rus rublundan manata gələn təhlükə...

yazısı səh.10-da

### "Azərbaycanın hədəfi Ermənistanı çökdürməkdir"

yazısı səh.13-də

### Sabir Rüstəmxanlı seçki taktikasını açıqladı

yazısı səh.10-da

### Ermənistan Rusiyanın tərkibinə keçir - Qarabağ problemi ilə birgə?

yazısı səh.13-də

### Qadını maşınla vurub öldürən sürücü hadisə yerindən qaçdı

yazısı səh.14-də

### Bakıda kirayənişin qadın evi sahibinin əlindən aldı

yazısı səh.15-də

## Hakim partiya namizədlərini nə vaxt açıqlayacaq?

# YAP-ın SEÇKİ SİYAHISI: "HAMI GÖZLƏYİR..."

İqtidar partiyasının hazırladığı siyahıdan qismən məlumatlı olduğunu deyən mənbə iddia edir ki, "indiki deputatların ancaq yarısı siyahıya düşüb"; iqtidar seçkiləri "gücü çatdığı qədər" ədalətli keçirəcəyi, vicdan məhbuslarını isə noyabrın 1-dək azad edəcəyi vədi verib...



yazısı səh.8-də

# Müdafiə sənayesi naziri Yavər Camalov təlaşda

MSN-in daha bir zavodunda müəmmalı yanğın; son aylarda nazirliyin iki zavodunda baş vermiş yanğınlar təsadüfdürmü...

yazısı səh.4-də



*Keçmiş prokuror Pirəli Orucov:*

### "Belə mübarizə olmaz"

yazısı səh.11-də



*Aysel Əlizadə:*

### "Kənan Hacını ölməyə qoyma, dövlət baba!"

yazısı səh.6-da



### Tofiq Yaqublunun həbs cəzası yarı oldu, o, əfvə düşə bilərmi...

yazısı səh.3-də



## Əflatun Amaşov: "Rasim Əliyevin ölümündə təqsiri olanlar mütləq cəzalarını alacaq"

**"Jurnalist Rasim Əliyevin döyülərək dünyasını dəyişməsinin baiskarları mütləq surətdə cəzalarını alacaqlar. Bunun yaxın günlərdə şahidi olacağıq. Həmin istiqamətdə müvafiq qurumlara göstərişlər verilib. Jurnalistin ölümündə təqsiri olanların tapılması ölkə rəhbərinin şəxsi nəzarəti altında davam etdirilir". Bunu APA-ya Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.**

Ə.Amaşov bildirib ki, Mətbuat Şurası Azərbaycan prezidenti İlham Əliyevin jurnalist R.Əliyevin ölümü ilə bağlı məsələyə yanaşmasını yüksək qiymətləndirib: "Bu, ölkədə demokratik cəmiyyətin təməl prinsiplərindən olan söz və mətbuat azadlıqlarının qorunmasına, medianın normal fəaliyyətinə dövlət səviyyəsində diqqət nümunəsi kimi dəyərləndirilməlidir".

**Şura sədri qeyd edib ki, Azərbaycan prezidentinin məsələyə münasibəti həm də cəmiyyəti azad sözə, plüralist fikrə daha diqqətli, həssas və dözümlü olmağa çağırışdır:** "Vəzifəsindən, peşəsindən, mövqeyindən asılı olmayaraq bu prinsipin qorunması hər bir şəxsin ümdə vəzifəsi olmalıdır. Cənab prezident bununla bir daha göstərdi ki, jurnalistlərin yaxın dostudur və həmişə, hər zaman həmkarlarımızın yanındadır".

## Azərbaycanda 2 şagird narkotikə görə məsuliyyətə cəlb edilib



**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası bu ilin 6 ayı ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizənin nəticələrinə dair məlumatları açıqlayıb.**

Dövlət Komissiyasından "Report"a bildirilib ki, cari ilin 6 ayı ərzində narkotiklərlə mübarizə sahəsində 1953 fakt aşkar edilib. Onlardan 566-sı satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, 1297-si satış məqsədi olmadan narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını qanunsuz olaraq əldə etmə və saxlama, 80-i qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə, 10-nu isə digərləri təşkil edib. Aşkar edilmiş faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 657 kq 364,621 qr müxtəlif növ narkotik vasitələr və 787 ədəd çətənə kolu müsadirə olunub.

Müsadirə olunan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını 465 kq 331,557 qr marixuana, 109 kq 129,065 qr tiryək, 38 kq 328,239 qr heroin, 41 kq 202,591 qr həşiş, 3 kq 710,14 qr psixotrop maddələr və digərləri, o cümlədən 443 kq 185,690 qr çətənə kolu təşkil edib.

Həmçinin, "Xaş-xaş" şərti ad altında keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 90 ton 278 kq 60 qr narkotik tərkibli bitkilər yaşıl kütlə halında yığılaraq məhv edilib.

Cinayət məsuliyyətinə 1251 nəfər cəlb edilib ki, onlardan 5-i 18 yaşadək, 299-u 30 yaşadək, 906-sı 30 yaşdan yuxarı, 15-i fəhlə, 5-i qulluqçu, 2-si nəqliyyat işçisi, 2-si orta məktəb şagirdi, 1068-i işləməyənlər, 1 199-u kişilər, 11-i qadınlar, 39 nəfəri isə xarici ölkə vətəndaşları olub.

Əcnəbilərdən 17-si İran İslam Respublikası, 15-i Gürcüstan, 3-ü Türkiyə, 1-i Rusiya Federasiyası, 2-si Ukrayna, 1-i Türkmənistan Respublikasının vətəndaşı olub.

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə məhkəmələrin qanuni qüvvəyə minmiş 197 hökmü üzrə müsadirə olunan 357 kq-dan (əlavə olaraq 3 118 ədəd çətənə kolu) artıq müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr yandırma yolu ilə Məhvetmə Komissiyası tərəfindən məhv edilib.**

# Əli İnsanov 3 günlüyə karsa salındı

**Keçmiş səhiyyə naziri Əli İnsanov Kürdəxanıdakı Bakı İstintaq Təcridxanasında karsa salınıb.**

"Azadlıq" qəzetinin verdiyi məlumata görə, Əli İnsanovun xarici banklardakı qonorarlarının müsadirəsinə dair məhkəmə qərarından verdiyi apelyasiya şikayəti ilə əlaqədar avqustun 1-də Bakı İstintaq Təcridxanasına aparılıb və dərhal karsa salınıb. Keçmiş nazir 3 gün karsda saxlanılıb.

Bakı Ağır Cinayətlər Məhkəməsi Əli İnsanovun xarici banklardakı qonorarlarının müsadirəsinə dair iyunun 18-də qərar çıxarıb. Əli İnsanov bununla bağlı Bakı Apelyasiya Məhkəməsinə şikayət edib. Keçmiş nazir Apelyasiya Məhkəməsində şüşə qəfəsə salınaraq danışmasına imkan verilmədiyini əsas gətirərək prosesdə iştirakdan imtina edib. Buna baxmayaraq avqustun 1-də onu məcburən 13 saylı cəzaçəkmə müəssisəsindən Bakı İstintaq Təcridxanasına aparıblar.



**Əli İnsanovun apelyasiya şikayətinə hakim Əflatun Qasımovun sədrliyi ilə baxılacaq. Məhkəmə artıq avqustun 6-da işə Əli İnsanovun iştirakı olmadan baxılmağa dair qərar çıxarıb. İşə isə avqustun 14-də baxılacaq.**

## Ermənilər Gürcüstan vətəndaşı olan azərbaycanlını girov götürdülər

**Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Faxralı kəndində yaşayan, 35 yaşlı Turqay Lətif oğlu Mikayılov yolu azaraq Ermənistan tərəfə keçib.**

Turqay Mikayılovun qohumu Bahar Mikayılova APA-ya açıqlamasında deyib ki, hadisə iyulun 23-də olub: "Hadisə Dmanisinin Yırğançay kəndinin yaxınlığında, Faxralı sakinlərinə məxsus yaylaqda baş verib. Turqay həmin ərazidə çobanlıq edib və siqaret almaq üçün dağdan enərkən, yolu azaraq Ermənistanın Cücə kəndinə gedib. Həmin kənd sakinləri onu saxlayaraq, Ermənistan sərhədçilərinə təhvil veriblər. Onlar isə Turqayı İrəvana aparıblar. Turqay artıq 17 gündür ki, Ermənistanda həbsxanada saxlanılır".

B.Mikayılova deyib ki, T.Mikayılov ailəsi ilə bir dəfə danışıb və Yerevanda ona 2 ay saxlanılacağını dediklərini bildirib.

**T.Mikayılovun ailəsi hadisə ilə bağlı Gürcüstanın hüquq-müdafiə orqanlarını məlumatlandırıblar. Hüquq-mühafizə orqanlarından ailəyə T. Mikayılovun qaytarılması üçün danışıq aparıldığı bildirilib.**




## Göygöl Milli Parkı xalqın üzünə açıldı

Göygöl Milli Parkına turistlərin girişinə qoyulmuş məhdudiyyətlər aradan götürülüb. Bunu oxu.az-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə olunan Təbiət Əraziləri Departamentinin direktoru Hikmət Əlizadə deyib. H.Əlizadə bildirib ki, yaradıldığı vaxtdan (1 aprel, 2008-ci il) Göygöl Milli Parkında Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbiətin mühafizəsini təşkil edib: "Göygöl müəyyən vaxtlarda antropogen təsirə, istismara məruz qalmışdı. Əraziyə daxil olan bəzi vətəndaşlar gölü çirkləndirir, ağacları qırırdılar. Bununla əlaqədar təbiətin bərpası üçün ora turistlərin girişinə məhdudiyyət qoyulmuşdu".

**H.Əlizadə qeyd edib ki, Göygöl Milli Parkına giriş məhdudiyyətlə açılıb:** "Turistlər ərazidə yalnız müəyyən marşrutlar üzrə, müəyyən istiqamətlər üzrə hərəkət edə bilər, əlavə olaraq müəyyən yerlərdən istirahət etmək üçün istifadə edə bilərlər".

**Şöbə rəisi deyib ki, Göygöl Milli Parkını çirkləndirən turistlərə qarşı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq böyük məbləğdə cərimələr tətbiq olunacaq:** "Ərazi vətəndaşların çirkləndirməməsi üçün tam nəzarətə götürülüb. Müxtəlif yerlərdə zibil qutusu quraşdırılıb, Milli Parkın ərazisinə daxil olan turist qruplarına pulsuz zibil torbası verilməsi nəzərdə tutulub".

Hikmət Əlizadə Milli Parkın ərazisinə yollanan turistlərə Azərbaycanın simvollarından olan Göygölü mühafizə etmək, onu qorumaq və ərazini çirkləndirməməyə çağırış edib.

**Biz də öz adımızdan Göygöl Milli Parkını ziyarət edəcək vətəndaşlarımızdan təbiətə qarşı diqqətli olmağı xahiş edirik, çünki ən azından Göygöl Azərbaycan təbiətinin mirvarisidir və onun ətrafının meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

## Leyla Şıxlinskaya klinikası bağlandı

**Azərbaycanın bağlanmış tibb ocaqlarının sırasına daha biri qoşulur. Bu dəfə Bakının ən tanınmış klinikalarından biri qapanır.**

Milli.Az-a daxil olan məlumata görə, Leyla Şıxlinskaya klinikası fəaliyyətini dayandırır. Klinikaya növbəti fəaliyyəti üçün lisenziya verilmədiyi deyilir. Klinika bağlandığına görə artıq həkim heyəti başqa müəssisələrdə özünə iş tapıb.

Tibb ocağı isə qapılarının bağlanmasını təmirlə əlaqələndirir. Klinikadan Milli.Az-a bildirildi ki, hazırda müəssisə lisenziya almaq ərəfəsindədir. Beş illik lisenziyanın vaxtı bitmək üzrədir. Ona görə də klinika müvəqqəti olaraq təmirə dayanır.

Qeyd edək ki, əsasən ginekoloji sahə üzrə məşhurlaşan L.Şıxlinskaya kilinikasının tanınmış ginekoloq və uşaq həkimləri müxtəlif vaxtlarda paytaxtın başqa tibb müəssisələrinə keçiblər. Bundan başqa, Bakıda fəaliyyət göstərən bir neçə klinikaya lisenziya verilmədiyindən fəaliyyətini dayandırıb.

## Müsavat öldürülən jurnalistlə bağlı bəyanat verdi

**"Jurnalist Rasim Əliyevin sosial şəbəkədə yazdığı tənqidi fikirlərə görə bir qrup şəxs tərəfindən vəhşicəsinə döyülərək öldürülməsi Azərbaycan cəmiyyətini sarsıdıb". Bu barədə Müsavat Partiyasının yaydığı bəyanatda deyilir: "Bu hadisə Azərbaycanda söz azadlığına qarşı dözümsüzlük mühitinin acı nəticələrindən biridir.**

Rasim Əliyev ölkədə mövcud olan hüquqi nihilizmin, özbaşınalığın, cəzasızlıq mühitinin qurbanıdır. Ədalət mühakiməsi sisteminin mövcud olmaması, ayrı-ayrı təbəqələrin xüsusi imtiyazların verilməsi bu cür acınacaqlı hadisələrin baş verməsinin əsas səbəblərindəndir.

Rasim Əliyevin ölümü ölkədə ümumi cəzasızlıq mühitinin mövcudluğunu, polisin öz funksiyalarını yetirməməsini, səhiyyə sisteminin acnacaqlı vəiyyətdə olduğunu bir daha açkara çıxardı.

Müsavat Partiyası hesab edir ki, Rasim Əliyevin qətlinə görə ilk növbədə bütün bu naqislikləri yaradan Azərbaycan hakimiyyəti cavabdehdir və hakimiyyət indiki idarəçilik sistemi mövcud olduqca belə hadisələr yenə də baş verəcək.

Müsavat Partiyası jurnalist Rasim Əliyevin ailəsinə, dostlarına, yaxınlarına və bütün Azərbaycan xalqına baş sağlığı verir.

Azərbaycan hakimiyyətindən bu cinayət hadisəsinin ciddi araşdırılmasını və günahkarların cəzalandırılmasını tələb edirik".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Müsavat Partiyası başqanının müavini, İsmayıllı hadisələrinə görə həbs olunan və haqsız yerə 5 il müddətinə azadlıqdan məhrum edilən Tofiq Yaqublu ona verilən cəzanın 2 il 6 ayını artıq çəkib. Bu da ona verilən cəzanın yarı olması anlamına gəlir. Maraqlıdır, məhbus cəzasının yarısını çəkdiyi təqdirdə əfv edilə bilərmi?**

# Tofiq Yaqublunun həbs cəzası yarı oldu, o, əfv edilə bilərmi?

## Səidə Qocamanlı: "Məncə, sentyabr ayında bu baş verə bilər"

Hüquq müdafiəçisi Səidə Qocamanlı Tofiq Yaqublunun əfv oluna biləcəyini dedi: "Qanunda belə bir şey var ki, məhbus ona verilən cəzanın yarı müddətini çəkdikdən sonra azadlığa çıxmaq üçün ərizə ilə müraciət edə bilər. Verilən cəzanın yarı müddəti keçdikdən sonra cəzaçəkmə müəssisəsinin rəhbəri də bununla bağlı məlumatlı olur. Amma cəzanın yarısının keçməsi ilə bağlı məhbusun ərizə yazması mütləqdir. Tofiq Yaqublu da ona verilən cəzanın yarı müddətini bitirib və bu qanun ona da şamil edilə bilər. Onun ailə vəziyyətini, ailənin başçısız qalmasını və evində baş verən faciəni nəzərə alsaq təbii ki, onun azadlığa buraxılması tezliklə olmalıdır. Düzdür, yayda əfvin verilməsi və yaxud hansısa işə baxılması məzuniyyətlər ucbatından gecikir. Amma mənə elə gəlir ki, sentyabr ayında bu, baş verə bilər. Biz bunu işçi qrupunun növbəti iclasında qaldıracağıq və öz növbəmizdə də bu məsələnin üzərində duracağıq".



Səidə Qocamanlı

**Qeyd edək ki, Tofiq Yaqublunun işi 8 aydır ki, Ali məhkəmədədir və hələ ki, bir nəticəsi yoxdur.**

❑ **Günel MANAFLI**

# Yunusları əfvlə azad edə bilərlər

## Məhkəmə prosesində avqust ayının 13-ə kimi fasilə elan olunub

**Seçkilər yaxınlaşdıqca hakimiyyətlə Qərb arasında danışıqlar da intensivləşir. Qərb hakimiyyətdən həmişə olduğu kimi demokratiya və insan haqları ilə bağlı tələblərin gerçəkləşməsini tələb edir. Siyasi məhbuslar məsələsi bu seçki öncəsi də ənənəvi olaraq müzakirələrin mərkəzi mövzusuna çevrilib.**



Belə məlumatlar var ki, son müzakirələrin mövzusu hazırda yarıqapalı şəraitdə məhkəmələri keçirilən Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusla həyat yoldaşı, politoloq Arif Yunusla bağlı olub. Gələn məlumatlara görə, parlament seçkiləri öncəsi Yunuslar əfvlə azad olunmaları haqda ilkin razılıq əldə olunub. Bu haqda "Yeni Müsavat"a bilgiləndirən mənbə deyib ki, hazırda məhkəmənin sürətli şəkildə keçirilməsi də parlament seçkiləri ərəfəsində Yunusların azad edilməsi üçün atılan addımdır. Mənbə bildirib ki, Arif Yunusun məhkəmə prosesi zamanı halının kəskin pisləşməsi və ona bir-birinin ardınca 6 iynə vurmaqla prosesin davam etdirilməsi tezliklə məhkəmə hökmünün çıxarılmasına xidmət edən addımlardandır. Hökmdən az sonra isə əfvlə Yunuslar azad oluna bilərlər. Əfv fərmanının sentyabrda veriləcəyi də gözlənilir. Belə məlumatlar da var ki, Yunuslar əfv olunacaqları təqdirdə ölkəni tərk etməlidirlər.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə Leyla və Arif Yunusların işi üzrə məhkəmə prosesi artıq yekunlaşmaq üzrədir. Prokuror L.Yunusun 11 il, A.Yunusun isə 9 il müddətinə azadlıqdan məhrum edilmələrini istəyib. Yunusların həbsi və məhkəməsi çoxsaylı qanun pozuntuları ilə müşayiət olunub, onlara fiziki və psixoloji təzyiqlər göstərilib. Beynəlxalq təşkilatlar yaşlı hüquq müdafiəçisini və onun həmyaşıdı olan həyat yoldaşının həbsini qanunsuz hesab etməklə siyasi motivlərlə həbs olunduqlarını dəfələrlə bəyan ediblər.

Qeyd edək ki, Leyla və Arif Yunusların məhkəmə prosesi avqustun 10-da davam etdirilib. Musavat.com-un müxbiri hadisə yerindən məlumat verir ki, məhkəmə nəzarətçiləri yalnız bəzi diplomatik nümayəndəliklərin - Almaniya, İngiltərə və ABŞ səfirliyinin təmsilçilərinin məhkəmə zalına buraxılmasına şərait yaradıblar. Onlar hətta Hollandiya və Fransa səfirliyindən gələnlərə, eləcə də yerli ictimaiyyətin nümayəndələrinə məhkəmə salonuna daxil olmağa icazə verməyiblər.

Bu səbəbdən zalın qarşısında iştirakçılarla məhkəmə əməkdaşları arasında qarşıdurma yaranıb. Əməkdaşlar açıq şəkildə zala heç kəsin buraxılmaması üçün onlara tapşırıq verildiyini bildiriblər.

"Trend"in məlumatına görə, məhkəmə prosesi açıq elan olunandan sonra L.Yunus məhkəmə prosesinə gətirilən hər 2 - rus-azərbaycan dili tərcüməçilərinə etiraz edib. Tərcüməçilərə etiraz edən L.Yunus məhkəmə qarşısında onların dəyişdirilməsini istədiyini söyləyib. O, mövqeyini tərcüməçilərin rus dilini mükəmməl bilmədikləri ilə izah edib.

Məhkəmə heyətinin qərarı ilə etiraz qəbul olunub.

**Hakim Ə.Hacıyev bildirib ki, məhkəmə prosesində avqust ayının 13-ə kimi fasilə elan olunub.**

❑ **E.HÜSEYNOV**

# Qatil qohumdursa, haqlıdır?



**Xalid KAZIMLI**

**İllərdir bundan yazırıq - haqsızlıqdan, ədalətsizlikdən, ikili standartlardan, qeyri-səmimilikdən. Bu ölkənin ədalətdən ən çox danışan insanları da bir yerə qədər ədalətli olurlar, o yerdən sonra tərəzinin gözünü mütləq əyirlər.**

Birisinin ədalət hissi üzvü olduğu partiyanın açıq-aşkar haqsız qərarına və addımına gəlincə sona yetir. O birinin ədalətinə mahalbazlıq, yerlibazlıq qalib gəlir.

Səhərdən axşama qədər xalqın marağından, demokratiyadan, prinsiplərə sədaqətdən danışan şəxs bir gün rüşvətxor və zorakı məmur qohumunun müdafiəsinə qalxaraq öz ədalətinə balta vurur.

Budur, günahsız bir jurnalist bir quru sözdən ötrü günün günorta çağı döyülərək öldürülüb. İndi onun qatillərini birbaşa və dolayısı ilə müdafiə edənlər var.

Eyni zamanda bəziləri günahı jurnalistdə axtarırlar və bu da mahiyyətcə qatilləri müdafiə etməkdir.

Özünə, şəxsiyyətinə, imzasına, reputasiyasına hörmət edən şəxslər belə məqamlarda yalnız bir mövqe tutmalıdırlar, nə "amma"dan əvvəl, nə də sonra qətlə bəraət qazandıracaq bir kəlmə işlətməməlidirlər. Qatilin ən əziz adamı belə onu mediada müdafiə etməməlidir, uzağı məhbəsə sovqat göndərməlidir.

Çünki ağır işdir, ortada qan var, gənc bir oğlan öldürülüb. O, nişanlıydı, ailə quracaqdı, üstəlik, ailənin tək oğluydu. Onun anasının sinəsinə dağ çəkilib, atasının qəddini əyilib, nişanlısının gözü yaşlı qalıb, bacısının bağrı yanıb. Bunun üstündən bəziləri də götürüb "jurnalistlər ağ ediblər" yazır.

"Ağ ediblər", yəni xoşa gəlməyən şeylər yazırlar, deməli, onları öldürmək lazımdır.

Elə şey ola bilməz axı. Hər qüsurun, səhvin, nöqsanın, yanlışın, böhtanın, iftiranın, qarayaxmanın, təhqirin uyğun cəzası var. Adama zəng edib "düz yazmamısan, üzr istəməlisən" deyərək problem həll etmək yerinə, üstünə hücum edib şillələmək belə düzgün deyil, o da qala təpikləyib öldürmək.

Başqa bir neçə nəfər sırf bir rayondandırlar deyə qətldə əli olan şəxsləri müdafiə edir və ya buna çalışırlar. Amma ölən jurnalist də həmin rayondandır axı, o necə olsun?

Ümumiyyətlə, qohumluğun, həmyerliliyin bu məsələyə dəxli yoxdur, ortada gizlədilməsi və bəraət qazandırılması mümkün olmayan cinayət var.

Belə situasiyalarda yalnız analar (çoxu) istəsələr belə heç vaxt ədalətli, obyektiv ola bilmirlər, övladı 5 nəfəri güllələyib öldürsə də, "oğlumun heç bir günahı yoxdur, günahın hamısı ölənlərdədir" deyə bilirlər.

Bu cür qalmaqallı qətllərdən həmişə başqa motivlərlə də istifadə edirlər. Hər kəs öz rəqibini, düşmənini birbaşa və dolayısıyla bu qətlə bağlamaq, onu suçlamaq, diskretisaiya etməyə çalışır. Hamı hamını suçlayır. "Hamımız günahkarıq" kimi qeyri-səmimi ritorika da yer alır.

Rasim Əliyevin faciəsindən də yararlanmaq istəyənlər, qətl hadisəsini ora-bura çəkənlər, oliqarxlararası savaşın predmetinə çevirmək istəyənlər var. Belə olsa, bu cinayətin üstünün tam şəkildə açılmasına mane olacaq.

Bir də heç kəs unutmasın ki, Rasim tənqidi jurnalistikanı təmsil etmirdi. Onun indiyəcən dövlət rəhbərliyini, nazirləri, oliqarxları, federasiya prezidentlərini tənqid etmək adına bir yazısı yoxdur. Çünki o, vide-operator idi və adətən çəkilişlər aparırdı. Jurnalistin tənqid etdiyi ən böyük adam futbolçu olub və bu fikirlər də sosial şəbəkədə yer alıb. Mərhum Rasimin yerində eyni şeyləri yazan başqa bir sənət sahibi (dülgər, müəllim, ticarətçi) olsa, onun da başına bu iş gələ bilərdi. Belə çıxır ki, Rasim başqa bir peşənin yiyəsi olsaydı, biz bu qətlə bu qədər diqqət yetirməyəcəkdik.

Hər gün hansısa bir ağır sözə, ifadəyə görə ölkənin dörd bir yanında yüzlərlə gənc bir-birilə dalaşır, bıçaqlaşır, tutulurlar və bu barədə kiçik bir informasiya gedir.

Uzun illərin qəzetçilik təcrübəsi göstərir ki, tənqid olunan şəxslərin vəzifəsi, rəngı nə qədər kiçikdirsə, tənqid edəni gözləyən təhlükə o qədər böyük olur. Məsələn, təhsil nazirinin ünvanına deyilən tənqidə reaksiya olmaya bilər, amma eyni tənqidlə üzləşən məktəb direktorunun redaksiyaya 20-yə qədər bir-birinə aman vermədən çığıran müəllimə göndərməsini azı 10 dəfə görmüşük.

İstənilən naziri tənqid eləmək asandır, nəinki bir MİS rəisini. İkincilər adamın üstünə qoçu dəstəsi göndərə, ayırdetmə söhbətinə çağıra bilər.

Rasim Əliyevin qətli məhz kiçik adamların tənqidə dözümsüzlüyü müstəvisində baş verib. Ona görə də digər qətlə yetirilən yazarlardan fərqli olaraq, bu qətlin üstünün tezliklə və tamam-kamal açılacağına ümid bəsləmək olar.

**Qoy bu qətldə rolu olan birinci, üçüncü, beşinci dərəcəli adamlar haqq-ədalət divanı qarşısında dayansın.**

YENİ MÜSAVAT
N 174 (6202) 11 avqust 2015



# Cavid Hüseynov həbs olunacaqmı?

Azər RƏŞİDOĞLU

**Daha bir jurnalist qətlə yetirildi. Bu ölkədə insan həyatı o qədər önəmsiz olub ki, hətta ortabab bir idmançı jurnalistin qətlinin sifarişçisi və yaxud təhrikçisi ola bilər.**

Lakin cəmiyyətin nə vaxt belə hadisəyə kütləvi etiraz edəcəyi də bəlli deyil. Tunisdə də belə olmuşdu. Yüzlərlə vətəndaş özbaşınalığın qurbanı olmuşdu və cəmiyyət buna seyrçi qalmırdı. Lakin 24 yaşlı bir gəncin etiraz əlaməti olaraq özünü yandırması dünyanın mənzərəsini dəyişmiş oldu. Cəmiyyətin absurd dərəcədə sıxılması əvvəl-axır kataklizmlərə gətirib çıxartmalı idi. Bu, qanunauyğunluq idi. Tunisdə bir gənc özünü yandırarkən, Yaxın Şərq despotları anlamırdılar ki, belə sərt idarəçilik enində-sonunda partlayışlara səbəb ola biləcək. Bu proseslərdən hamı dərs almalıdır. Əks təqdirdə, sonluq faciəli olacaq.

Lakin cəmiyyətin sıxılmasını həyata keçirənlər də nələrisə planlaşdırırlar. Azərbaycan da istisna deyil.

Cəmiyyəti daha çox sıxmaq və kütləvi qorxu mühiti yaratmaq cəhdləri hakimiyyətin daha böyük planlarından xəbər verir.

Azərbaycan hakimiyyəti beynəlxalq öhdəliklərə və ölkə qanunlarına hörmətsizlik nümayişini davam etdirir.

Ehtimal etmək olar ki, jurnalist Rasim Əliyevin qətli də beynəlxalq qurumlar tərəfindən sərt təpki alacaq. Artıq nüfuzlu Qərb mətbuatı bu hadisə barədə geniş materiallar dərc edir.

Jurnalistin qətli və sifarişçinin azadlıqda qalması nəticəsində cəmiyyət iki dilemma qarşısındadır. Ya bu tip qətllərin yeni dalğasını gözləməli və ölkənin deqradasiya olunmasına boyun əyməli, ya da bu prosesləri durdurmalıdır. Bəyanat vermək, məqalə yazmaq ümumi prosesin yalnız tərkib hissəsi kimi qəbul oluna bilər. Prosesləri durdurmaq üçün daha çevik addımların atılması zəruridir. Rasim Əliyevin qətli Tunisdə özünü yandıran gəncin verdiyi effekti yarada bilər.

Qətllərə və həbslərə "dur" demək rahat kabinetlərdə bəyanatlar verməklə həyata keçirilmir. Rasim Əliyevin qətli cəmiyyəti birləşdirməlidir. Bu gün ortabab bir futbolçunu həbsə ala bilməyən dövlət öz imicini zərbə altında qoyur.

Qətldə adı əsas fiqur kimi keçən futbolçu Cavid Hüseynov nə Messidir, nə də ki Peledir. Messi olsaydı belə, bir gəncin qətlində adının hallandırıldığına görə ən azından istintaqa cəlb edilməli və məhkəməyə qədər barəsində həbs-qətimkan tədbiri seçilməli idi. Özünə heyran olan bu idmançı elə bir çirkaba bulaşdı ki, futbolçu kimi karyerasını bitirdi. Əslində, bir insan kimi də ona bundan sonra yaşamaq çətin olacaq. Qətlə yetirilmiş Rasimin, arzuları və xəyalları puç olan Rasimin nişanlısının lənəti daima onun üzərində olacaq. Bu qədər təkəbbür, özünə vurğunluq son nəticədə elə belə də başa çatmalı idi.

Azərbaycan qəribə ölkədir. Bir idmançı avtomobili yüksək sürətlə idarə edərək neçə-neçə ailənin işığını söndürür, digər idmançı jurnalist Fərahimi qanına qəltan edir. Bütün bunlar cəzasız qalır və ulduz xəstəliyinə tutulan futbolçu gənc jurnalisti "başa salmağı" tələb edir və sonluğu bilinməyən faciə yaşanır.

Bu gün cəmiyyət qəzəblidir. Tunisdə də belə olmuşdu. O zaman özünü yandıran gənc onu təhqir edən polisin cəzalandırılmasını tələb edirdi. Tunis siyasi elitası bundan imtina etdi və nəticədə ölkənin, bölgənin düzəni dəyişdi. Proseslərin başlanmasında mühüm rol oynayan polis isə yeni hakimiyyətə xidmət etməyə başladı. Elə futbolçu üçün də kimin onu alqışlamasının elə də önəmi yoxdur.

**Əgər vaxtında o polis qurban verilsəydi, hər şey başqa cür ola bilərdi. Bu gün Azərbaycanda da eyni vəziyyət yaranıb və ictimai rəy Cavid Hüseynovun həbsini tələb edir...**

# Müdafiə sənayesi naziri Yavər Camalov təlaşda

## MSN-nin daha bir zavodunda müəmmalı yanğın; son aylarda nazirliyin iki zavodunda baş vermiş yanğınlar təsadüf ola bilərmi...

**Müdafiə Sənayesi Nazirliyinin (MSN) Xəzər rayonu ərazisindəki zavodlarından birində partlayışla müşayiət olunan yanğın baş verib. Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, MSN-in "İqlim" Elmi-İstehsalat Müəssisəsinə daxil olan zavodda avqustun 6-da baş verən yanğını söndürmək üçün Fövqəladə Hallar Nazirliyinin 20-yə yaxın yanğınsöndürən maşını cəlb olunub.**

Əraziyə **müdafiə sənayesi naziri Yavər Camalov**, onun müavinləri, fövqəladə hallar nazirinin müavinləri və yüksək çinli şöbə rəisləri də gəliblər. Zavod hərbi təyinatlı və qapalı olduğundan hadisə yerinə mətbuat nümayəndələri buraxılmayıb.

Yanğın yarımzirzəmi, divarları iç tərəfdən rezin materialla əhatələnən böyük bir tikilidə baş verdiyindən yanğınsöndürənlər içəri daxil ola bilməyiblər. Rezin materialın yanması nəticəsində əmələ gələn qatı duman da alovu ram etmək istəyən yanğınsöndürənlərə ciddi çətinliklər yaradıb. Alov sutka yarımdan sonra söndürülüb. Hazırda hərbi təyinatlı zavodda yanğının hansı səbəbdən meydana gəlməsi aydınlaşdırılır. Baş vermiş olay zamanı zavodun işçilərinin xəsarət alması və ya zəhərlənməsi haqda məlumat yoxdur.

Bir-birinin ardınca, 1 ay fasilə ilə baş verən yanğınla müşayiət olunan partlayışlar müdafiə sənayesi nazirini çətin duruma salıb. Y.Camalov nazirliyə tabe olan bütün müəssisə və təşkilatlarda yanğın təhlükəsizliyinə cavabdeh şəxsləri topalayaraq onlara xüsusi tapşırıqlar verib. MSN-ə tabe olan bütün qurumlarda təhlükəsizlik tədbirləri gücləndirilib. Gələn məlumatlara görə, nazir Yavər Camalov baş vermiş olaylardan sonra təlaş içindədir. Ən aktual suallardan biri də budur ki, müdafiə təyinatlı zavodlarda 1 ay fasilə ilə baş verən iki yanğın təsadüfdürmü?



Yavər Camalov

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı MSN və "İqlim" Elmi-İstehsalat Müəssisəsi ilə əlaqə saxlayıb. MSN-dən telefonlara cavab verilməyib. Müəssisədən isə yanğın faktını təsdiqləyiblər. Bildiriblər ki, yanğın zamanı işçilərdən xəsarət alan olmayıb.

Yada salaq ki, iyulun 6-da Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərindəki "Telemexanika" zavodunda da yanğın baş vermişdi. Hərbi təyinatlı zavodda baş vermiş partlayış zamanı Şirvan şəhər sakini, 1967-ci il təvəllüdlü Raziyə Cəfərxan qızı Süleymanova aldığı ağır dərəcəli yanıq xəsarətlərindən hadisə yerində keçinmiş, 19 nəfər yanıq xəsarətləri ilə xəstəxanaya çatdırılmışdı. Onlardan bir çoxuna ilkin tibbi yardım göstərilərək evə buraxılmışdı. Sonradan yaralılardan bir neçəsi də xəstəxanada keçinmişdi. Şirvan Şəhər Prokurorluğunda "Telemexanika" zavodunda baş verən yanğınla bağlı cinayət işi başlanıb. Ekspertlərin iştirakı ilə hadisə yerinə baxış keçirilib, ekspertiza tədqiqatı üçün nümunələr götürülüb və digər prosessual hərəkətlər yerinə yetirilib.

**Faktla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, hadisənin baş vermə səbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq ekspertizalar təyin edilib.**

❑ **Mövzuya qayıdacağıq.**
**E.MƏMMƏDƏLİYEV**

# Bağlanan banka borcu olanlar krediti hara ödəməlidir?

## İqtisadçı-ekspert: "Bu barədə çox şübhəli və qaranlıq proseslər gedir..."

**Adı qalmaqallarda hallanan "Texnikabank" uzun müddətdir ki, müştərilərə maşın, ipoteka və digər kreditlər almaq imkanı təqdim edirdi. Redaksiyamıza daxil olan məlumatlara görə artıq bank kreditlərin aylıq ödənişlərini qəbul etmir. Belə olan təqdirdə isə insanları bir sual düşündürür ki, aldıqları kreditlərin aylıq ödənişini hara ödəsinlər?**




Bankdan aldığımız məlumata görə, ipoteka krediti xaric olmaqla digər kreditlərin aylıq ödənişini bank qəbul edir. İpoteka kreditlərinin ödənişini qəbul etməməyə gəlincə isə "Texnikabank"ın rəsmi səhifəsində sual cavab bölməsində bank yetkilisindən aldığımız məlumata görə, məsələ ilə bağlı hal-hazırda ipoteka fondu ilə danışıqlar aparılır. Danışıqlar bitən zaman müştərilərə SMS vasitəsi ilə məlumat verəcəklərini deyən bank yetkilisi müştərilərə ipoteka ilə bağlı heç bir ödəniş etməyi məsləhət gördü. Aylıq ipoteka kreditinin vaxtından keçsə, belə bu gecikmə sayılmayacaq və aylıq ödənişin üzərinə faiz gəlməyəcək: "Bizdə olan məlumata görə, ödənişləri başqa Banka ödəyəcəksiniz. Hazırda hansı Banka ödəniş olacağı ilə bağlı heç bir informasiya Bankımızda mövcud deyil.

Bank müəyyən olandan sonra Sizə SMS vasitəsi ilə məlumat veriləcək".

**İqtisadçı ekspert Qadir İbrahimli** bankın lisenziyasının tam ləğv olunmadığı üçün konkret söz deməyin çətin olduğunu dedi: "Texnikabank"la bağlı hansı anlaşılmazlıqların olması ilə bağlı rəsmi məlumatlar yoxdur. Hər halda bu bankın lisenziyası ləğv edilməyib. Bankın səlahiyyətləri ləğv etmə komissiyasına verilməyib. Bu barədə çox şübhəli və qaranlıq proseslər gedir. Yalnız bankın bütün səlahiyyətləri ləğv edildikdən sonra həmin kreditlərin ödənilməsi başqa banklara həvalə edilə bilər. Belə bir rəsmi qərarda olmadığı üçün konkret söz demək çətindir".

**Qeyd edək ki, "Texnikabank"ın Bakı filialının sabiq rəhbəri Zal Yusifov digər şəxslərlə birlikdə cinayət əməli törədərək 81 müştərinin banka qoyduğu təxminən 38 milyon manat pulu mənimsəyib. Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Zal Yusifov əmlakı müsadirə olunmaqla 15 il müddətinə azadlıqdan məhrum edilib. Zal Yusifovun oğlu İslam Yusifov isə 8 il müddətinə azadlıqdan məhrum edilib.**

❑ **Günel MANAFLI**



# Prezident jurnalistin ölüm işini öz nəzarətinə götürdü

## Rasim Əliyevin anasından Cavid Hüseynova ağır suçlama; **Teyfurə Əliyeva:** "Cavid özü Rasimi aldadıb, görüşə çağırdı"; ictimaiyyət nümayəndələri toplantı keçirdilər

**Jurnalistin Rasim Əliyevin döyülərək qətlə yetirilməsi işini prezident İlham Əliyev şəxsi nəzarətinə götürüb. Bunu "Azərtac"a açıqlamasında prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.**

Ə.Həsənov prezidentin Rasim Əliyevin döyülməsi və fiziki xəsarət alaraq dünyasını dəyişməsi barədə məlumatdan ciddi narahat olduğunu bildirib. O qeyd edib ki, prezident bu faktı ölkədə söz və məlumat azadlığına, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətinə təhlükə və təhdid kimi qiymətləndirərək qeyd edib ki, demokratik prinsiplərin mühüm tərkib hissəsi olan KİV azadlığının təmin edilməsi Azərbaycan dövlətinin ali məqsədi və prioritet vəzifələrindən biridir. Bu prinsipin pozulması dövlətin maraqlarına və həyata keçirilən siyasətin mahiyyətinə tamamilə ziddir və yolverilməzdir: "Prezident İlham Əliyev hadisə barədə xəbər tutan kimi Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinə məsələnin qısa müddətdə, tam təfsilatı ilə araşdırılması, cinayətkarların tapılması və məsuliyyətə cəlb edilməsi, habelə hadisənin baş vermə səbəbləri, istintaqın gedişi haqqında dövlət başçısının və ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıqlar verib. Prezident məsələni şəxsi nəzarətində saxlayacağını və cinayətkarların tapılaraq qanuna uyğun şəkildə cəzalandırılacağını diqqətə çatdırıb".

"Həmin adamları Rasimlə görüşə Cavidin özü göndərib. Rasim dedi ki, ana Cavid zəng eləmişdi. Dedi, səni söyən uşaqlar gəlib səndən üzr istəyəcəklər".

Bunu isə musavat.com-a açıqlamasında avqustun 8-də bir qrup şəxs tərəfindən döyülən və aldığı xəsarətlərdən xəstəxanada vəfat edən jurnalist **Rasim Əliyevin anası Teyfurə Əliyeva** deyib.

**Futbolçu Cavid Hüseynovun Rasimin ölümündən xəbərsiz olmasını deməsinə münasibət bildirən Teyfurə Əliyeva bunun yalan olduğunu deyir:** "Cavid həmin adamları tanıyır. Rasimi aldatdılar. Cavid özü Rasimi aldadıb, görüşə çağırdı. Ayrı-ayrı adamlar Rasimə zəng edirdi. Rasim dedi ki, zəng edənlərdən biri özünü Cavidin bibisioğlu kimi təqdim edib. Biri də deyib ki, adı Vüsaldır. Cavid onları Rasimlə görüşə göndərmişdi. Guya çay içib, üzrxahlıq edəcəklərdi. Rasim pul da götürmüşdü ki, çay içəcəklər".

**T.Əliyeva oğlunun döyülməsi haqda bunları danışdı:** "Rasimi çatan kimi vurublar. Namərd insanı arxadan vurar. Pul qabını və telefonunu da götürüblər. Mənə dedi ki, yerə yıxıldım, ancaq ayaqlarını gördüm. Rasim dedi ki, azı 6 nəfər idilər".

**C.Hüseynovun xəstəxanada Rasimi ziyarət etməsindən də danışan T.Əliyeva bildirdi ki, həmin vaxt oğlunun yanında dostu Aydın olub:** "Cavid xəstəxanaya gələndə mən evdə idim. Yanından bir az olar çıxmışdım. Dostu Aydın Rasimin yanında idi. Sonra mən Rasimlə telefonda danışdım. Mənə dedi ki, Cavid və "Qəbələ" klubunun meneceri gəlmişdi. Ondan üzrxahlıq ediblər. Cavid deyib ki, onun döyülməsindən xəbərsizdir və həmin adamları tanımır. Ətraflı danışmaq istədim. Rasim dedi ki, yanına gələndə danışarıq".





**T.Əliyeva sosial şəbəkələrdə C.Hüseynovun ailəsini tanımaları, onlarla tanışlıqlarının olması və Cavidin atası ilə sinif yoldaşı olması haqda yayılan məlumatlara da münasibət bildirdi:** "Biz Cavidin ailəsini tanımırıq. Heç bir qohumluğumuz da olmayıb. Bizim əslimiz də Cəbrayıldandır. Ancaq onları tanımırıq. Yalan yazırlar. Nə bir əlaqəmiz, nə də bir tanışlığımız var".

Qeyd edək ki, Cavid Hüseynov 9 mart 1988-ci ildə Cəbrayıl rayonunun Qaracallı kəndində anadan olub. Cavid Hüseynov şəhid Şakir Abbasovun oğludur. Futbolçunun atası Şakir Hüseyn oğlu Abbasov 1993-cü ildə Qarabağ döyüşləri zamanı 896 saylı Cəbrayıl alayında batalyon komandiri olub. Ağdam uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olub.

***

Avqustun 10-da Vətəndaş Cəmiyyətinin Müdafiə Komitəsinin təşkilatçılığı ilə Rasim Əliyevin ölümü ilə bağlı toplantı keçirildi. Toplantıda hüquq müdafiəçiləri və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edib.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** jurnalistin qətlə yetirilməsi ilə bağlı səsləndirilən versiyalardan danışıb. M.Əliyev jurnalistin qətli ilə bağlı 3 versiyanın olduğunu deyib: "Bu versiyalar siyasi, hakimiyyətdaxili çəkişmə və xuliqanlıqdır. Siyasi versiya ona görədir ki, Rasim Əliyev uzun müddət RATİ-də çalışıb. Emin Hüseynov RATİ-nin sədrliyindən gedəndən sonra Rasim Əliyev sədr olmaq üçün Ədliyyə Nazirliyinə müraciət etmişdi. Onlar digər əməkdaşları ilə birgə fəaliyyətlərini davam etdirmək istəyirdilər. Rasimin qətli RATİ-nin bağlanması prosesinin başlanması ilə eyni günə təsadüf edir. Bu da mesaj ola bilər.

Ancaq Rasim heç də aktiv siyasətlə məşğul olan biri deyildi. RATİ-yə sədr olmaq istəməsi belə formal xarakter daşıyırdı. Rasim nə hakimiyyət, nə də prezidentlə bağlı tənqidi fikirlər səsləndirmirdi. Mən bunun şahidi olmamışam. Bunlar qətlin siyasi sifariş olmasını təkzib edir".

**Mehman Əliyev jurnalistin qətlinə səbəb kimi hakimiyyət daxili qruplaşmalarının bir-birindən qisası versiyasının da real görünmədiyini deyir:** "Hadisəni törədənlərin fubolçu Cavid Hüseynovun qohumları olması məlum olduğundan bu versiya da qüvvədən düşür".

Mehman Əliyev əsas versiyanın xuliqanlıq olduğunu bildirdi. Hakimiyyətin idmandan siyasi şou kimi istifadə etdiyini deyən M.Əliyev bəzi idmançıların hədlərini aşdıqlarını və bundan istifadə edərək xuliqanlıq əməlləri törətdiklərini bildirdi.

Mehman Əliyev jurnalistin ölümündən sonra ölkə rəhbərliyinin və hüquq-mühafizə orqanlarının bəyanatlar verməsini "gecikmiş məsələ" hesab edir: "İndiki bəyanatlar Rasim döyüləndən sonra olsa idi bəlkə də o ölməyəcəkdi. Həkimlər daha məsuliyyətli şəkildə onu müayinə edəcəklərdi. Əgər Rasim vəfat etməsəydi bu bəyanatların heç biri olmayacaqdı. Sabah bu cür hadisənin yenə də baş verəcəyini gözləyirik. İqtidaryönümlü jurnalistlərin də döyülmə, təzyiqlərə məruz qalma halları olur. Ancaq bu cür cinayətlər açılmır. Açılanlar isə jurnalist araşdırmalarının nəticəsi olur".

**Hüquq müdafiəçisi Arzu Abdullayeva** da çıxışında jurnalistin ölümünün səbəbini hakimiyyətdə olduğunu bildirdi: "Bu əməli törədən şəxslərdə qorxu yoxdur. Ölkədə cəza sistemi olmadığından belə özbaşınalıq var. Bu cinayətin taleyi də Elmar Hüseynov və Rafiq Tağı cinayətinin taleyi kimi olmamalıdır. Hadisənin səbəbi və törədənlər bəllidir".

**Arzu Abdullayeva keçirilən tədbirdə iştirak edənlərin sayının az olmasına da münasibət bildirdi:** "Mən düşünürdüm ki, biz iştirakçıları buraya yerləşdirə bilməyəcəyik. Amma gözlədiyimizdən də az insan gəldi. Vətəndaş Cəmiyyətinin Müdafiə Komitəsinin üzvlərinin çoxu bu tədbirdə iştirak etmədi. Əvvəllər qrantlar olurdu deyə çox adam gəlirdi. İndi heç kim gəlmir. İndi də məlum olur ki, kim nə üçün işləyir".

Mehman Əliyev tədbirin sonunda bildirdi ki, bəyanat hazırlanıb. Tədbir iştirakçıları bəyanatla tanış olduqdan və əlavə fikirlərini bildirdikdən sonra ictimaiyyətə və beynəlxalq təşkilatlara ünvanlanacaq.

Xatırladaq ki, ölən jurnalist Rasim Əliyev Cavid Hüseynovu tənqid edən status yazdığına görə, onun qohumları tərəfindən döyülmüşdü. Onu döyənlərdən biri Cavid Hüseynovun bibisioğlu Elşən İsmayılov olub və onun polisə təslim olduğu bildirilir. Jurnalistin döyülməsində iştirak edən digər şəxslərin də saxlanıldığı deyilsə də onların adı açıqlanmır.

❑ **İlkin MURADOV**

# Xədicə İsmayılın məhkəməsində zərərçəkənlər və şahidlər ifadə verdilər

## Proses yenə də yarımqapalı keçirildi; müxalifət liderləri məhkəməyə buraxılmadılar



**Avqustun 10-da Ağır Cinayətlər Məhkəməsində araşdırmaçı jurnalist Xədicə İsmayılın məhkəmə prosesi davam etdirildi. Prosesdə iştirak etmək üçün çoxlu sayda insan məhkəmə binasının qarşısına toplaşmışdı. Müxalifət liderləri MSDM rəhbəri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, xarici ölkə təşkilatları və səfirliklərinin nümayəndələri də məhkəməyə gələnlər arasında idilər.**

Əvvəlki proseslərdə olduğu kimi, bu dəfə də məhkəmədə iştirak etmək istəyənlər zala buraxılmadılar. Yalnız səfirliklərin nümayəndələri zala daxil ola bildilər.



Məhkəmədə iştirak edə bilməyən MSDM rəhbəri İsa Qəmbər mətbuata açıqlamasında buna kəskin reaksiya verdi: "Hakimiyyət həqiqətlərin ortaya çıxmasından qorxduğunu açıq şəkildə nümayiş etdirir. İstənilən halda biz bütün siyasi məhbusların, onların hansı peşə ilə məşğul olmalarından asılı olmayaraq, hamısını müdafiə etmişik. Buna davam edəcəyik. Hesab edirik ki, onların tez azad olunması vacibdir. Bu, bütün Azərbaycanın problemdir. İlk növbədə, hakimiyyətin problemidir. Bütün siyasi məhbusların azad olunması rejimin özü üçün çox vacibdir. Hakimiyyət gerçəklərin yayılmasından qorxur. Məhkəməyə yüzlərlə insan gələ bilər. Amma məhkəmədə baş verənləri cəmiyyətə geniş şəkildə çatdıran jurnalistlərdir. Hakimiyyət də məhz bundan çəkinir. Ona görə də, jurnalistlərə olan hücumlar vahid bir sistemin həqiqətləri gizlətmək istəklərinin nəticəsidir. Bu yolverilməz haldır. Jurnalistlərə qarşı olan nəinki təzyiqlər, hətta onları qətlə yetirmək rejim üçün adi hala çevrilib. Çox təhlükəli tendensiyadır. Hamımız buna etiraz etməyi bacarmalıyıq".

**Müsavat başqanı Arif Hacılı**: "Azərbaycanda ümumiyyətlə, ədalət mühakiməsi sistemi yoxdur. Bütün bu məhkəmələr yuxarıdan verilmiş qərarlar əsasında həyata keçirilir. Biz bura gələrkən onsuzda prosesə buraxılmayacağımızı bilirdik. Biz istər Leyla xanım, istərsə də, Xədicə xanım olsun, daim məhkəməyə gəlirik. Bununla az da olsa, bizim də azadlığımız üçün məhbəsdə olan insanlara hörmətimizi göstəririk. Burada durduğumuz saatları onların şərəfinə sayğı duruşu kimi dəyərləndiririk".

Proses keçirildiyi müddətdə məhkəmə binası önünə toplaşan jurnalistlər avqustun 9-da döyülməsi nəticəsində həyatını itirən həmkarları Rasim Əliyevin xatirəsi ilə bağlı aksiya keçirdilər. Mərhumun ruhu bir dəqiqəlik sükutla yad edildi. Çıxış edən mətbuat nümayəndələri qısa vaxtda qatillərin tapılmasını tələb etdilər...

Məhkəməyə buraxılmadığımızdan fasilədə yalnız vəkillərdən məlumat ala bildik. Birinci hissəsində zərərçəkmiş şəxslər Tural Mustafayev və onun anası, Rövşanə Rəhimova ifadə veriblər. Onlar ifadələrində Tural Mustafayevin özünü öldürmə halına çatdırılmasında Xədicə İsmayılın günahının olmadığını bildiriblər.

**Bu barədə nahar fasiləsində mətbuata vəkil Fariz Namazlı məlumat verdi:** "Tural Mustafayevin zərərçəkən statusuna xitam verilməsi ilə bağlı vəsatət verdik. Çünki o, ifadəsində özünü zərərçəkən hesab etmədiyini bildirdi. Verdiyimiz vəsatətə hələ ki baxılmayıb".

**Fasilədən sonra da şahidlər dildirilib. Vəkilin dediklərindən:** "Tural Mustafayevin atası və keçmiş həyat yoldaşı da ifadə verdi. Şahidlər də bildirdilər ki, Turalın intihar həddinə çatdırılmasında Xədicə xanımın günahı yoxdur. Onun psixi problemlərinin olduğunu təsdiqlədilər. Azadlıq Radiosunun fəaliyyəti ilə bağlı ifadə vermiş şəxslər qeyd etdilər ki, Xədicə İsmayılla müqavilə bağlamayıblar. Maliyyə məsələsini Yəhya Mirzəyevlə danışdıqlarını açıqladılar. Müqaviləni Praqada yerləşən Azərbaycan nümayəndəliyi ilə bağladıqlarını bildirdilər. Bunlar onu göstərir ki, Xədicə xanıma qarşı irəli sürülmüş ittihamlar əsassızdır. Günün birinci yarısında Tural Mustafayevin zərərçəkmiş statusuna xitam verilməsi ilə bağlı vəsatət vermişdik. Amma təəssüf ki, vəsatətimiz təmin olunmadı. Digər şahidlərin dindirilməməsi əsas gətirildi".

**Şahidlərdən Şahvələd Çobanoğlu da danışdı:** "Bildirdim ki, Xədicə xanıma qarşı yox, onun özünə qarşı olan cinayət işinə şahidlik edə bilərəm. Bütün baş verənlər ona qarşı olan cinayətdir. Bunları sübut edən sənədləri hakimə təqdim etdim. Azadlıq Radiosunda fəaliyyətim Xədicə xanımla bağlı olmayıb. Müqavilə başqa adamla bağlanıb. Müqavilənin surətini belə hakimə göstərdim. Ümumən baş verənlər hesab edirəm ki, Xədicə xanımın fəaliyyəti ilə bağlı ona qarşı olan cinayət işidir".

Məhkəmə prosesi bu gün saat 11:00-da davam edəcək.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 174 (6102) 11 avqust 2015

# Partiya rəhbərləri gözləmə mövqeyində

## Müxalifət YAP-ı gözləyir, hakim partiya isə tələsmir

**Parlament seçkilərinə üç aydan da az vaxt qalıb. 20 gün sonra seçki kampaniyası başlanacaq. Seçkidə iştirak etmək qərarında olan partiyalar dairələr üzrə deputatlığa namizədlərini müəyyənləşdirməkdə davam etdiklərini bildirilər. Maraqlıdır ki, bu proses nədənsə bütün partiyalarda aylardır davam edir və hələ də bitmək bilmir. Diqqəti cəlb edən daha bir maraqlı məqam isə partiyaların əksəriyyətinin birinci şəxslərinin hansı dairədən namizəd olacaqlarının hələ də müəyyənləşməməsi və ya ictimaiyyətə açıqlanmamasıdır.**

Müxalifət partiyalarının təmsilçiləri ilə seçki mövzusunda apardığımız sorğulardan və partiya rəhbərlərinin özlərinin açıqlamalarından belə məlum olur ki, partiya sədrlərinin əksəriyyəti hələ də hansı seçki dairəsindən namizəd olacaqları barədə yekun qərara gəlməyiblər. Bəzi partiya sədrləri isə hətta ümumiyyətlə, seçkidə iştirak edib-etməyəcəyini müəyyənləşdirməyib. Seçkiyə isə çox az vaxt qalır. Seçki mütəxəssisləri hesab edir ki, seçkiyə bu qədər az vaxt qalmasına baxmayaraq partiya sədrlərinin seçkidə iştirak edəcəkləri dairələri dəqiqləşdirməməsi və ictimaiyyətə açıqlamaması onların özlərinin ziyanınadır, gecikmə seçki günü öz təsirini göstərəcək.

**Siyasi şərhçi Elxan Şahinoğlu** da hesab edir ki, seçicilərlə iş aparmaq, təmaslar qurmaq üçün namizədlərin seçki kampaniyasından xeyli əvvəldən müəyyənləşməsi vacibdir: "Partiyanın məramı və məqsədi məhz seçkilərdə iştirak etmək, öz varlığını göstərmək və qələbəyə çalışmaqdır. Əgər bunların heç biri yoxdursa, partiya tərifinin özü mənasını itirir. Ona görə də partiya mütləq seçkilərdə iştirak eləməlidir. Bəzilərinin hələ seçkidə iştirak edib-etməyəcəklərini bilmədiklərini bəyan etməsi suallar yaradır. Əgər partiyasansa seçkidə iştirak eləməlisən. İddia edə bilərlər ki, seçkilər saxtalaşdırılır, yenə də əvvəlki kimi olacaq. Onda yenə eyni sual çıxır ki, bəs, siz nəyə lazımsınız, əgər prosesi dəyişə, seçkiyə təsir edə bilmirsinizsə, nəyə lazımsınız? Deməli siz güclü deyilsiniz ki, prosesə heç bir təsir göstərə bilmirsiniz. Partiyalarda, onların rəhbərlərində bir qədər tənbəlləşmə də müşahidə olunur.

Seçkiyə az vaxt qalıb, ancaq onların çoxu hələ hansı dairədən namizəd olacaqlarını bilmirlər, yaxud cəmiyyətə elan etmirlər. Partiyalar bu baxımdan xeyli vaxtı itkiyə vermiş sayılırlar. Qarşıda iki aydan bir qədər çox vaxt qalıb. Bu müddətdə nə qədər çeviklik olsa belə vaxt o qədər azdır ki, tam əhatəli seçki kampaniyası aparmaq asan deyil.

Mən indiki durumu bir tərəfdən anlayıram. O baxımdan ki, partiyalar obyektiv və subyektiv səbəblərdən o qədər zəifləyib maliyyə vəsaitləri çox azdır. Ona görə də seçki kampaniyası rəsmən başlamamış olan-qalan maliyyəni, enerjini xərcləmək istəmirlər. Amma nə mane olur ki, partiya sədrləri öz dairələrini elan etməsinlər? Elan etsələr həmin dairələrin seçiciləri indidən bilərlər ki, filan partiyanın lideri onların dairəsindən namizəd olacaq. Namizədin tanınması baxımından bunun ancaq müsbət təsiri var".

**Ekspertin sözlərinə görə, müxalifətdə bir neçə qütbün formalaşması da seçkidə öz mənfi təsirini göstərəcək. Narazı elektoratın səsləri parçalanacaq:** "Bax, bu vəziyyətlə üzləşməmək üçün də əvvəldən partiyalar müzakirə aparmalı, indidən qərarlar verməli idilər və verməlidirlər. Bu cür qeyri-müəyyənlik yaxşı nə isə vəd etmir.

Ola bilsin ki, partiya liderləri hakim partiyanın hansı dairədən kimi namizəd irəli sürəcəyini gözləyirlər. Amma bu gözlənti müxalifəti vaxt itkisinə məruz qoyur. Belə davam etsə, biz yenə də çox qısa müddətli seçki yarışının şahidi olacağıq. Yenə də müxalifət partiyaları parlamentdə az təmsil olunacaqlar".

❑ Etibar SEYİDAĞA

# Kənanı ölməyə qoyma, dövlət baba!

**"Bu hadisə Xristianiyada - insanda həmişəlik möhür qoyan şəhərdə ac - yalavac dolaşdığım günlərdə baş verib". Knut Hamsunun "Aclıq" romanı belə başlayır. Hamsunun qəhrəmanı aldığı xırda-para qonorarla günlərini ötüşdürən, hər sabah "bu günə ümid varmı" sualını özünə verən bir yazardı. Pulsuzluqdan ağac qabığı yeyir, ancaq vaz keçmir, redaktorlardan təklif gözləyir, tanınacağına, varlanacağına ümid edir. Gözləyir və bir gün uzaqlara yol alan gəmidə iş tapıb şəhəri tərk edir.**

Aysel ƏLİZADƏ



Bakı - bizim tək ümidimiz.

Bizim uzaqlara aparan gəmilərimiz yoxdu.

Xəzərimiz var... nə dəniz kimi dəniz, nə də göl kimi göl.

Sonunda əllərimizi yelləyəcək olsaq da burdan gedə biləcəyimizi sanmıram.

Hər addımda stress, qıcıq yaşayırıq. Səbəbi də var.

Nevropotoloqa da getmirəm daha. Adamı çilədən çıxarırlar. Bir faydaları da yox. Kimə gedirsən antidepressant yazıb yola salır.

Birinə getmişdim, "nə işləyirsiz" soruşdu, rejimimə uyğun diaqnoz qoyacaqmış. "Yazıçıyam" dedim. "Yazıçı ştatı olurmu?" - xəbər aldı.

"Tusi"dən (klinika) aldığım MRT cavabını təpəsinə keçirmək istədim. Özümü saxladım.

Bu da həkimimiz. Sağaltsın deyə gəlmişdim, əsəbləşib getdim.

İki gün öncə kolleqamız xəstəxanada keçindi. Detalları hamı bilir. Ancaq bir əminliyimiz var - Rasimi qurtarmaq olardı. Ağır durumda müsahibə verməli deyildi, yaxşıca yoxlanmalı və dərhal əməliyyat olunmalıydı.

Niyə həkim sözü cəllad sözüylə assosiasiya olunur ölkəmizdə?

Yazmıram çoxdandı. Eyni şeyləri nə qədər yazmaq olar.

Dünən yazar dostum Kənan Hacıya baş çəkməyə getdim. Kənan bəy səkkiz ildi Hepatit C-dən əziyyət çəkir. Ünvanını xəbər alanda "gəlmə, narahat olma" dedi. Durumunun ağırlaşdığını öyrəndim, necə gəlmə?!

Manqurtlaşdıqmı, bir insan gözümüzün qabağında əriyib gedir, sakitcə izləyəkmi? Buna nə zaman öyrəşdik, necə bu qədər pis adam olduq.

Xəstəlik, ölüm, haqsızlıq haçandan adiləşdi. Kənan bəyin vəziyyəti ağırdır, ancaq onu xilas etmək mümkündü.

Jurnalist Rasim Əliyevi xilas edə bilmədik, heç olmasa indi ləngiməyək. Dövlət baba, bu ölkədə sənin ögey balan yoxdu axı, hamısının qanı qanındandı. Kənan Hacıya kömək lazımdı, vacibdi, şərtdi.

Nə qədər absurd olsa da adamların bu ölkədə sağlamlıq sığortası yoxdu. Ancaq dövlət hesabına müalicə haqqı var axı.



**"Sarayları olan adamlar gördüm, evində bir kitab tapmazsan. Komasında kitablarının arasında can verən ziyalı gördüm, çox gördüm. Daha görmək istəmirəm"**

Hə, getdim evinə. İkisi yaşayır xanımıyla - iki ziyalı. Xanımı elmi işçidi, dissertasiyasını yazıb hazır qoyub, həvəsi, marağı yoxdu müdafiəyə. Xəstəliyə görə uşaqları da olmur. Evə gəlincə, bu sözləri yazıb dostumuzu incitmək istəmirəm, yalnız gizlədəcək durum da deyil. Evdə iki adam ayaq üstə dayansa bir-birinə yapışar. Orda yalnız oturmalısan, tərpənməyə yer yox. Belə bir evdə divar büsbütün kitabxanadı. Sarayları olan adamlar gördüm, evində bir kitab tapmazsan. Komasında kitablarının arasında can verən ziyalı gördüm, çox gördüm. Daha görmək istəmirəm.

İnsan nə zaman özünü xoşbəxt hiss edə bilər?

Bir vətəndaş özünü nə zaman xoşbəxt sayar?

Nə sevgili ilə baş-başa şamda, nə balasını qucaqlayanda, nə sevimli işlə məşğul olanda. Ehtiyac içində çarəsizsənsə balanın üzünə baxmaq özü bir dərddi, sevgilinlə yoxsulluqdan əzab çəkmək özü bir utancdı, zəhmətinin əvəzini görməmək, vuraram" söylədi, necə güvənlə həm də. Ona paxıllığım tutdu. Heç vaxt nə havalı kabrioletini qısqandım kiminsə, nə dünyanın bir nömrəli markasından aldığı geyimini. Ancaq ona, o Almaniya vətəndaşı olan dostuma paxıllığım tutdu.

Biz nə istəyirik? İstəyirik adamlar əzab çəkməsinlər bu ölkədə.

Mən boy-buxunlu həkimin cibinə pul basanda onun yerinə tər tökürəm. Həm də bilirəm ki, o bu pulu götürməyə məcburdu. Deyə bilirəm? Məcburdu.

Adam ona görə əziyyət çəkib illərlə təhsil alır ki, gələcəyini təmin edə bilsin. Bizim uşaqlarımız əksini görür. Görür ki, oxumuş, təhsilli olmaq gələcəkdən məhrum olmaq, ac qalmaqdı. Ona görə də oxumur, oxumayacaq da. Cəmiyyətdə oxumuş adam özünü tapana qədər belə olacaq. Sən təhsil sistemində nə quraşdırırsan quraşdır, uşaq oxumağın bir anlamı olduğunu görməsə oxumayacaq.

işinə qiymət almamaq özü bir qubardı. İnsan - vətəndaş yalnız arxasında dövlətini hiss edəndə xoşbəxt olur - bunu bütün məsuliyyətimlə deyirəm. Almaniyadakı dostum Bakıya gəlmək istəyəndə ona "sənədlərin, vizan filan qaydasında olsun, birdən səni hava limanında saxlayarlar" dedim. Cavabında "kim saxlaya bilər, dərhal səfirliyimizə zəng

Yazıçı rəfiqəmlə söhbət edirdik. Dedi, kasıblıq ayıb bir şey deyil filan söyləmək insanları aldatmaqdı. Kitablar, filmlər yoxsulluğa şarm qata bilər, əzabkeş insan obrazı canlandırıb bütün çətinliklərə baxmayaraq qürurlu duruşu ilə bizi təsirləndirən Məsih xarizmasını, Sizif səbrini, nə bilim, sonradan dünyanın ən varlı "ölü" sünə çevrilən dahi Vinsenti xatırlada bilər. Ancaq ölkəndə sayılmaq üçün mütləq tanışın, arxan, pulun, imtiyazın olmalıdısa, bunlarsız adam yerinə qoyulmursansa, kasıblıq ayıbdı. Çünki hər yerdə aşağılanmış hiss edəcəksən özünü, hər yerdə bir heçlik olacaqsan, utanacaqsan.

Əziz və hörmətli insanlar, üstünüzə kömək üçün gələn, sizdən əl uzatmanızı uman kəsləri geri çevirməyin. Hörmətli səhiyyə naziri, cəmiyyətdə nazir olmaq önəmli məsələdi, ancaq ondan da önəmlisi yaxşı nazir olmaqdı. Sizin insanların yaddaşında qalmaq, gerçəkdən ad, sevgi və uzuuun illər bu yerlərdə rəhmət qazanmaq üçün tarixi şansınız var.

Bu şansı əldən vermək böyük yanlışlıq olar. Lütfən, adamlara kömək edin. Bunu sevə-sevə, böyük ürəklə edin. İnsanların həyatı əlinizdədi. Bu xalqı sağaltmaq sizə tapşırılıb. Biz bu işin çətinliyinin miqyasını bilirik. Ancaq bir məsələ var, siz də bunu bildiyiniz və öhdəsindən gələcəyinə inandığınız üçün o postdasız. Heç kimi zorla vəzifəyə qoymurlar, əksinə olur, hamı özü çalışır bunun üçün. Bu xalqa əl uzadın.

Kənan Hacı keçən il "Vəsiyyətnamə" adlı yazı yazıb. Yazıçı obrazı əlyazmalarını vəsiyyət edir cəmiyyətinə. Kirədə qaldığı otağın sahibi onu çıxarır. O da küçədə gecələməli olur: "Həyətin hasarı yox idi, hasar əvəzi dövrələmə çaylaq daşı düzülmüşdü. Həyətin küncündə hamam üçün nəzərdə tutulmuş, üstü şiferlə örtülü bir tikili vardı, qapısı da yox idi. Həmin gün qapısı belə olmayan o tikilidə gecələyəsi oldum, kitabları döşək əvəzi yerə düzdüm ki, soyuq canıma işləməsin. Elə bil öz əlimlə özümü kəfənləyib qəbrə qoyurdum".

Bu yerdə Platonovun tabuta girib nəfəsini saxlayaraq ölməkdən başqa çarəsi olmayan obrazlarını xatırladım; Hamsunun aclığını da.

Hamsun aclığı amansız reallıqdı. Hamsun aclığı ziyalı faciəsidi, insan ümidsizliyidi.

İnsanlar hələ də aclıq çəkirlərsə, ehtiyac içindədilərsə, sağlamlıqlarına qovuşa bilmirlərsə sivilizasiya kimə gərəkdi? Saysız hesabsız siyasi xadim, məmur, dövlət adamı nə üçündü?

Adamlar bir ömrü adam kimi yaşamayacaqsa, dünya bazarı, iqtisadi anlaşmalar, elmi labaratoriyalar nəyə xidmət edir?

**"Jurnalist Rasim Əliyevi xilas edə bilmədik, heç olmasa indi ləngiməyək. Dövlət baba, bu ölkədə sənin ögey balan yoxdu axı, hamısının qanı qanındandı. Kənan Hacıya kömək lazımdı, vacibdi, şərtdi"**

YENİ MÜSAVAT
N 174 (6202) 11 avqust 2015

**Futbolçumuz qol vurur, komandamız qələbə qazanır və qolun sahibi həmrəylik əlaməti olaraq Türkiyənin bayrağını açaraq iki qardaş ölkənin birliyini nümayiş etdirir. Eyni zamanda tamaşaçıların oturduğu digər bölümdə Şimali Kipr bayrağını açan gənclər polisin kəskin hücumuna məruz qalsalar da sona qədər "Yavru Vətən"in bayrağına sahib çıxmağı bacarırlar.**

**Rüfət MURADLI**



# Bayraq həm də əxlaq və tərbiyə simvoludur

Bütün bunları gerçəkdən qürur hissi ilə izlədik. Polisi qınadıq, gəncləri və futbolçumuzu isə öydük. Di gəl, futbolçumuzun o qeyri-müəyyən, eyni zamanda primitiv tərbiyə qaydalarına uyğun olmayan hərəkəti ilə hər şey alt-üst oldu. Gerçəkdən bayraq qaldıran bayrağın dəyərini və məsuliyyətini anlamalı...

Bayrağın müqəddəsliyi haqda çox duyduq, şox eşitdik. Osmanlı sultanı Muradın dönəmində 13 yaşlı bir yeniyetmənin bayrağa sarılaraq şəhid olması kimi tarixdə rastlaşdığımız onlarla bayraq qəhrəmanlığı nümunəsi mövcuddur. Görəsən, ölkəmin Türkiyə bayrağı qaldıran futbolçusu da İzmirdə yunan qoşununa qələbə çalıb tribunaya zəfər nitqi üçün qalxan Mustafa Kamal Paşanın ayaqları altına Yunan bayrağı sərilirkən "Bayraq bir millətin heysiyyətidir. Onu həmən qaldırın" deyimindən xəbərdar idimi? Düşünmürəm... Bu olayın sabahısı baş verən acı hadisə, əslində qanımızı donduran faciə isə mənim haqlı olduğumu təsdiqləyir. Orta mövcud olan tablo budur: "İdmançımızın idman ənənəsi və əxlaqına sığmayan davranışına etiraz mahiyyətli (bir az da kəskin) FB statusuna görə gənc, yaxın günlərdə ailə qurmağa hazırlaşan, peşəsi jurnalist olan Rasim Əliyev özlərini məlum futbolçunun yaxınları kimi təqdim edən bir qrup şəxs tərəfindən vəhşicəsinə döyülür və o, xəstəxanaya yerləşdirilsə də daxili qanaxmadan həyatını itirir! Hazırda bu yazı yazılırkən Rasim artıq torpağa da tapşırılıb. Bu qədər bəsit, bu qədər soyuqqanlı, bu qədər acımasız bir şəkildə gəncin həyatına son qoyulur. Polisin və səhiyyəmizin yarıtmaz, eyni zamanda aciz durumunu göz önündə sərgiləyən acı bir hadisə yaşadıq. Ayıq vicdanları ağrıdan dəhşət saçan bir olay... Amma bu faciə ilə yanaşı özünü millətçi camiənin nümayəndələri sayan bəzi dostların olaya yanaşmaları mənim üçün gözlənilməz, eyni zamanda ağır zərbə oldu.

**Əzizlərim! Biz bir nəsnəni unuduruq deyəsən.** Bayraq da, vətən də, torpaq da, yurd da onun üzərində yaşayan insanı ilə dəyər qazanır. Və bayraq da onu daşımağa mənəvi haqqı olanların başı üzərində dalğalananda gerçək dəyərini qazanar. Çünki bayraq həm də əxlaq və tərbiyə simvoludur. Türkiyə bayrağını nədən başımın üzərinə qaldırdığımın mahiyyətini iki kəlmə ilə ifadə edə bilmirəmsə, bu, idmançılarımızın duyğularının da tez alışan poliuretan üzlüklər kimi süni olması kimi dəyərləndirilə bilər.Əslində idmançılara iri məbləğdə mükafatları təqdim edən qurumların onların mənəvi-psixoloji durumlarına da diqqət etməsi gərəkir. Əgər bu qurumların özləri bu açıdan sorun yaşamırlarsa. Nə yazıq ki,biz çempionluğuna görə 400 min mükafat aldıqdan sonar idmanı buraxaraq biznesə qoşulan,mühafizə xidmətinə işə keçən, hətta narkotikə qurşanan idmançılarımızı da az görmədik.

Baş verən olayda futbolçunu müdafiə edən dostlar bunu da unudurlar ki, əgər bu gün həmin idmançının yaxınları tərəfindən ağır tənqid etməsi səbəbilə bir gənc vəhşicəsinə döyülürsə bu cəmiyyətdə dərəbəylik və cəzasızlıq adlı qorxunc bir sindromun adi hal almasının təzahürüdür. Və bu sindrom toplumun hər fərdi üçün təhlükə mənbəyidir. Tərbiyəsi olmayan, vətən anlayışı vilasının divarını, millət düşüncəsi qohumlarının sərhədini aşa bilməyən fərdlərin müdafiəsi mövcud presedentinsözə görə cəzalandırmanın adiləşməsinə səbəb olmaqla cəmiyyətdə daha ağır faciələrə, başıpozuqluqlara yol aça bilər.

Heç ömrümdə bircə dəfə belə rastlaşmadığım o bəxtsiz gənc bir də geri - evinə, ailəsinə dönməyəcək. Avqustun ortalarında nişan mərasimi olacaqmış. Ailəsinin və nişanlısının acısı böyük...

**Nə qədər ki, haqsızlıq qarşısında susuruq, güclüyə tən veririk, bir tanışımıza görə haqq sözü deməkdən belə çəkinirik, aqibətimiz bundan qeyrisi olmayacaq. Müqəddəs kitabımızda da gəlib ki, "bu dünyada hər şey insan üçündür". Bəli əzizlərim, hər şey onun varlığı ilə dəyər və anlam əldə edir. O cümlədən BAYRAQ da...**



# İqbal Ağazadə gənclərlə növbəti görüş keçirdi

## Partiya sədri biliklərə sahib olmağın əhəmiyyətindən danışdı



**Şənbə günü Ümid Partiyasının Mərkəzi Qərargahında Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Ümid Partiyası Analitik təhlil şöbəsinin, "READ-Book club'un təşkilatçılığı və READ nəşr evinin sponsorluğu ilə keçirilən tədbirdə gənclərlə görüşüb. Mükəmməl elmi biliklərə sahib olmağın əhəmiyyəti, intellektual gəncliyin ölkənin gələcəyində rolu və başqa mövzularda çıxış edən cənab Ağazadə gənclərin maraqlandıran sualları da cavablandırdı.**



Həmin gün partiya sədri Ümid Partiyası Gənclər Təşkilatı və Gənc Demokratlar İnstitutunun birgə həyata keçirdiyi Birinci Yay Akademiyası layihəsi çərçivəsində yeni gənclər qrupu ilə də görüşüb, gəncləri maraqlandıran sualları cavablandırıb və onlara uğurlar arzulayıb.

# Ümid Partiyasının Gəncə şöbəsi namizədlərini müəyyən etdi

**Ümid Partiyası Gəncə Şəhər Şöbəsinin Məclisi 09 avqust 2015-ci il tarixində növbəti iclasını keçirib. İclasda ölkədəki ictimai-siyasi vəziyyət, parlament seçkilərinə hazırlıq, tapşırıqların icrası, və təşkilatlanma məsələləri müzakirə olunub.**



Gəncə Şəhər Şöbəsinin sədri Salman İmanlı bölgədəki ictimai-siyasi durumu, şöbənin Parlament seçkilərinə hazırlıq vəziyyətini Məclis üzvlərinin diqqətinə çatdırıb. Qeyd olunub ki, Gəncədəki 4 dairənin hər birindən partiyanın namizədləri müəyyənləşib. Belə ki, Emin Abbasovun - 37 saylı Nizami I; Südabə Babazadənin - 38 saylı Nizami II; Razim Quliyevin-39 saylı Kəpəz I; Salman İmanlının - 40 saylı Kəpəz II seçki dairəsindən namizədlikləri irəli sürüləcək.

**Ali Məclisin üzvü Flora Qurbanova** imza toplayanlar, məşvərətçi səs hüquqlu üzvlər və müşahidəçi olacaq şəxslərin müəyyənləşdirilməsi barədə məlumat verib və işlərin avqust ayının sonunadək yekunlaşacağını bildirib. Bundan sonra yeni üzlərin qəbuluna baxılıb.

**Partiyanın Ali Məclisinin sədri Rəfail Tağızadə** Məclisin iclasında iştirak edib. R.Tağızadə ölkədəki ictimai-siyasi vəziyyət, partiyanın parlament seçkilərinə hazırlığı ilə bağlı çıxış edib və Məclis üzvlərinin suallarını cavablandırıb.

**Partiyanın sədri, millət vəkili İqbal Ağazadə** telefonla Məclisin iclasına qatılıb. Partiya sədri Məclis üzvlərinə tapşırıq və tövsiyələrini verib, Parlament seçkilərində Gəncə Şöbəsinə böyük ümidlər bəslədiyini bildirib və uğurlar diləyib. Məclis üzvləri də partiya sədrinin ümidlərini doğruldacaqlarına söz veriblər.



## Başsağlığı

**Ümid Partiyası Goranboy Rayon Şöbəsinin sədri İmamverdi Verdiyevin ailəsinə ağır itki üz verib. Onun anası Fatma xanım 105 yaşında vəfat edib.**

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və Partiyanın Rəyasət Heyəti Partiyanın 105 yaşlı üzvü Fatma xanımın vəfatından kədərləndiyini bildirir, İmamverdi bəyə və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir.**

**Allah rəhmət eləsin!**



# Qeyri-yaşayış zonası

Zamin HACI
zaminhaci@gmail.com

**Hüquq-mühafizə orqanları jurnalist Rasim Əliyevin faktiki qətli haqda informasiyada şablon cümləni yenə yazmışdılar: "Hazırda hadisənin baş verməsəbəblərinin və iştirakçılarının tam dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir". Təxminən bənzər açıqlamanı prezidentin köməkçisi Əli Həsənov da verib, üstəlik, cəmiyyəti təmkinli olmağa çağırıb: "Dövlət orqanlarının məlumatını gözləmədən ayrı-ayrı informasiya resurslarının məsələni müxtəlif istiqamətlərə yozmaq cəhdlərini yolverilməz hesab edir və obyektiv araşdırmanın nəticələrini gözləməyi tövsiyə edirik".**

Məni bu açıqlamalardakı "təxirəsalınmaz" və "gözləmək" sözləri düşündürdü. Bu sözlər Azərbaycan hüquq-mühafizə orqanlarının iş prinsiplərinə, özəlliklə tanınmış insanların qətlinə aid olanda çox ironik səslənir. Görəsən bunlar indiyə qədər hansı belə hadisədə yüksək sürətlə cinayətkarı yaxalayıblar? Biz nəyi gözləməliyik? Bəlkə 10 il qabaq qətlə yetirilən jurnalist Elmar Hüseynovun qatillərini tapıblar? Bəlkə 18 il qabaq öldürülən Ziya Bünyadovu vuran tutulub? Bəlkə son 5-6 ildəki Rafiq Tağı, Rail Rzayev olaylarında cinayətkarlar yaxalanıb?

Prinsipcə, düşünsək xeyli sayda belə cinayətlər saya bilərik. Bu qara cinayətlər siyahısında hətta ABŞ Respublikaçılar Partiyası Bakı ofisinin rəhbəri Con Elvisin də öldürülməsi faktı var. Bizim quqqulu-mühafizə orqanları sadə cinayətləri kiminsə boynuna yıxıb hadisəni ört-basdır edə bilirlər, iş məşhur adama aid olanda, cəmiyyətin, dünyanın diqqəti altında olanda isə bu, mümkün deyil. Hansısa yazıq adamın belinə bunu yükləmək olmur. Qəzetlər yazır, jurnalistlər diqqət edir, cəmiyyət özü müzakirə edir və sairə... Yoxsa bizim ölkədə məşhurların və qeyri-məşhurların başına açılan oyunlar, cinayətlər elə də fərq etmir. Statistika nisbəti də eyni olar.

Rasim Əliyevin öldürülməsi müəyyən qədər Rafiq Tağının öldürülməsinə bənzədi. O baxımdan ki, hər ikisi xəstəxanada öldülər. Bundan qabaq "pasportstol"da döyülüb aldığı zədələrdən xəstəxanada ölən fotojurnalistimiz Alim Babayin də faciəsi var. Niyə bunları sadalayıram? Rafiq Tağı ağır bıçaq zədələri ilə xəstəxanaya düşən günlərdə onun palatasını "Binə" yarmarkasına döndərmişdilər. Kim istəsə sərbəst girib-çıxırdı. Jurnalistlər palatadan, hətta reanimasiya otağından canlı yayım yapırdılar. İndi Rasim Əliyev də həmçinin səhiyyə sistemindəki biabırçılığın qurbanı olmuşdur.

Məni başqa detal da düşündürür. Bizim futbol onsuz bir zad deyil, üstəlik buna görə adam öldürürlər. Yenə adamı örnək üçün, "Barselona"ya, nə bilim, Messiyə-filana görə döyüb öldürsələr yandırmaz. Qotur bir klubun yoluq bir futbolçusuna görə həyat kimi qiymətli şansdan məhrum olmaq - böyük faciədir.

Çirkli pullar, korrupsiya ilə qazanılan yalançı ad-sanın qurduğu komandanın qatilliyə yolu uzaqdan gəlir. Bir əcnəbi ata sözündə deyilən kimi: "Qurbağanı öküz həddinə qədər üfürsən partlayar". İndi bizdə qurbağaların partlama erasıdır. Onların iyrənc kloakasından tökülən üfunətli tullantılar altında hələ nə qədər gözəl insanlarımız boğulacaq - şeytan bilir. Bəzən dindarlar mənə "şeytan bilir" ifadəsinə görə irad tuturlar. Mən mistik deyiləm, dinlərə inanmıram, amma Azərbaycan kimi ərazilərdə olub-keçənlərin xeyirxahlıqdan qaynaqlanmadığı çox aydın məsələdir. Burda olanların Tanrıya, Allaha, Boqa dəxli yoxdur.

Yadınıza gəlirsə, başqa futbol komandamızın bir futbolçusu da neft pulları ilə alınan, xalqın cibindən oğurlanan bahalı avtomobillə 2 nəfər küçə süpürgəçisi yazıq qadını vurub öldürmüşdü. Deyəsən onu da heç tutmadılar, yenə həyasızlıqla küçələrdə şütüyür. Bəlkə yenə adamları öldürür.

Qanunların işləmədiyi ölkədə jurnalistləri öldürməyin çoxlu yolları var. Birini blokda güllə ilə, o birini pulsuz mənzil verib öldürmək olar. Başqasını zindanda çürütmək, bir ayrısını döymək və sairə - yapistlərin "təxirəsalınmaz" tədbir çeşidləri çoxdur. "Ölməyə vətən yaxşı" misrası ilə bitən bayatımız sanki boyumuza biçilib, hər kəs "bura yaşamalı yer deyil" söyləyib şikayətlənir.

**Yeri gəlmişkən, belə hadisələr olanda sanki mərkəzi aparatdan yaltaq KİV-lərə göstəriş gəlir: "Dəxli yoxdur, harda olsa belə hadisələr tapıb yazın". O üzdən görürsən "Burundidə jurnalisti begemot uddu" tipli xəbərlər pırtlayır. Cəmiyyətə belə ovqat sırınır ki, neyləyək, hər yer belədir. Amma heç deyən yoxdur ki, görəsən başqa harda hüquq-mühafizə orqanına rəhbərlik edən şəxslər 20 il kresloya kök atır, daha harda saxta seçkilər olur? Niyə xaricdən yaxşı şeyləri də götürmürük?**

## Hakim partiya namizədlərini nə vaxt açıqlayacaq?



# YAP-ın seçki siyahısı: "Hamı gözləyir..."

İqtidar partiyasının hazırladığı siyahıdan qismən məlumatlı olduğunu deyən mənbə iddia edir ki, "indiki deputatlardan ancaq yarısı siyahıya düşüb"; iqtidar seçkiləri "gücü çatdığı qədər" ədalətli keçirəcəyi, vicdan məhbuslarını isə noyabrın 1-dək azad edəcəyi vədi verib...

**Milli Məclisin deputatları avqust ayının 30-da tətilə yekun vuraraq, işə başlayacaq. Plenar iclas isə sentyabrın 30-da olacaq. Bu isə əksər deputatlar üçün həm də son sessiya hesab oluna bilər.**

Yeni parlament seçkilərinə iki aydan bir qədər çox müddət qalsa da, YAP yekun siyahısını hələ də açıqlamayıb. Bu ləngiməni bəzi hakim partiya yetkililəri müxalifətin seçki siyahısını açıqlamasını gözləməklə izah edir. Bu variant qismən reallığı əks etdirir; çünki müxalifət nə qədər zəifləsə də, onun ayrı-ayrı liderləri hələ də YAP namizədləri üçün istənilən dairədə rəqabət yaratmaq gücündədir. Amma məlumatlara görə, YAP-ın seçki siyahısının açıqlamaması daxili müzakirələrin bitmədiyi səbəbindən ləngiyir.

Belə iddialar var ki, YAP-ın iki siyahısı mövcuddur. Bu siyahıların birini, YAP-ın icra katibi, baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə partiyanın İdarə Heyəti hazırlayıb. Amma hələ İdarə Heyətində təsdiqlənməyib. İkinci siyahı isə Prezident Administrasiyasına məxsusdur ki, bu da gözləniləndir. Çünki illərdir ki, parlament seçkilərində PA-nın mövqeyi həmişə önəmli olub.

Xəbərlərdə deyilir ki, bu siyahılar arasında ciddi fərqlər var.

Məsələn, YAP-ın hazırladığı siyahıdan məlumatlı olduğunu deyən mənbəmiz iddia edir ki, "indiki deputatların yalnız yarısı siyahıya düşüb". Bu iddia bundan əvvəl bu mövzuda yayılan xəbərləri tamamlayır. Məlumdur ki, YAP rəhbərliyi seçkiöncəsi bütün dairələrdə deputat fəallığı ilə bağlı nəticəsi hələ də açıqlanmayan monitorinq aparıb. Monitorinqinə görə, YAP-çı deputatların cəmi 8 nəfəri fəal olub, hakimiyyətin siyasətini təbliğ və müdafiə etməyi bacarıb. Qalanlarının fəaliyyəti isə passiv olub və partiyaya heç bir divident gətirməyib. YAP rəhbərliyinin hazırladığı siyahıda məhz həmin şəxslərə yer verilməyib.

Prezident Administrasiyası isə "komandadaxili mövqeləri nəzərə alaraq" siyahı tərtib edib ki, burada da yeni adlar var.

İqtidar partiyasını 125 dairənin hər birindən namizəd irəli sürməsinə "yuxarıdan" isti baxmırlar və belə hesab edirlər ki, bu proses YAP ətrafındakı partiyaları küsdürə bilər. Siyahlarda bir neçə dairədə də namizəd "toqquşmaları" var ki, bunu da hələ aradan qaldırmaq mümkün olmayıb. Yekun siyahı isə avqustun 15-dək prezidentə təqdim edilməlidir.

İddialara görə, iqtidarın siyahı tərəddüdünün daha bir mühüm səbəbi də Qərblə son aylar istiləşən münasibətlərdir. Hətta belə bir xəbər də var ki, iqtidar parlament seçkilərini "imkan daxilində" ədalətli keçirəcəyi, vicdan məhbuslarını isə noyabrın 1-dək azad edəcəyi vədi verib.

Beynəlxalq təşkilatların qarşıdan gələn parlament seçkiləri ilə bağlı mövqeyi kifayət qədər sərtdir. Avropa Parlamenti qərar verib ki, Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidəçi göndərməyəcək. Hətta Avropa Parlamentinin üzvlərindən kimlərinsə müstəqil şəkildə seçkini müşahidə etməyə getməsi də yolverilməz sayılıb. ATƏT-lə də əlaqələr Bakı ofisinin bağlanmasından sonra daha da zəifləyib. Bu halda parlamentin legitimliyi məsələsi ortaya çıxar ki, bu da iqtidar üçün vacibdir. Bu səbəbdən iqtidar seçki mühitini qismən də olsa ədalətli etmək, seçki kampaniyasını canlandırmaq haqda düşünür. Belə olduqda isə aydındır ki, YAP-ın bəzi "əvəzolunmaz"ları, eləcə də iqtidaryönlü partiyaların namizədləri siyahıdan kənarda qala bilər.

Məhz bu səbəbdən ötən seçkilərdə hətta bir neçə ay əvvəldən ürəklə deputatlıq iddialarını ortaya qoyanlar indi "bu barədə danışmağın tez olduğunu" və ya "YAP-ın qərarı nə olacaqsa..." deməklə kifayətlənirlər. Hamı gözləyir...

Siyahı ilə bağlı ən ilginc xəbərlərdən biri də deputat-rektorlarla bağlıdır. Hələ bir müddət əvvəl "Yeni Müsavat" yazmışdı ki, hakimiyyət bu məsələ üzərində çox düşünsə də, sonda onların iştirakını əngəlləməməyə qərar verib. Buna səbəb rektorların hər birinin "on minlərlə tələbənin səsinin parlamentdə təmsilçiliyi"dir. Onlar hakimiyyəti inandırıblar ki, seçki prosesindən kənarlaşdırılmaları ali məktəblərdə "siyasi mühitə" mənfi təsir edə bilər.

Bununla bağlı da YAP daxilində narazılıq var. Bir qisim hesab edir ki, rektorlara prezident yüksək etimad göstərib və onlara mandat da verməklüzumsuzdur. Bu sırada yalnız bir nəfər - Azərbaycanın Avropa Şurasındakı nümayəndə heyətinin rəhbəri, Dillər Universitetinin rektoru Səməd Seyidov istisnadır və o, özünü rahat hiss edə bilər. Mümkündür ki, siyahı prezident səviyyəsində təsdiqləndikdə rektorlarla bağlı da son qərar veriləcək.

Müxalifət partiyaları da öz siyahılarını tərtib etməyə tələsmirlər. Burada da taktika aydındır: hakimiyyət üçün həyati əhəmiyyət kəsb edən fiqurların hansı dairədən irəli sürüləcəyini gözləmək olduqca məntiqlidir. Kimsə istəməz ki, hakim partiya və siyasət üçün vazkeçilməzlərdən sayılan deputatlığa iddiaçılarla eyni dairəyə düşsün.

Lakin müxalifət partiyalarının əksəriyyətinin başqa bir problemi də var: hazırda ölkədəki bütün seçki dairələrini əhatə edə biləcək sayda tanınan, ya da qismən tanınan namizəd tapmaq, tapılsa da, onları irəli sürərək, seçki prosedurlarını keçmək ciddi problemdir. Bir sıra "adlı-sanlı" müxalifət partiyaları, blokları nə hala düşdüklərini gizlətmək üçün boykot taktikasını təbliğ edirlər. Lakin, heç şübhəsiz, Müsavat kimi ciddi partiyalar da var ki, onlar seçkidə sona qədər iştirakda maraqlıdırlar.

**Buradaca qeyd edək ki, hazırda demokratiya paytaxtlarını Bakıda təmsil edən səfirlik və şəxslər müxalifətin seçkilərə girməsi üçün maraqlı görünürlər. Əldə etdiyimiz məlumatlara görə, "qərblilər" müxalifətlə olan təmaslarda onları inandırmağa çalışırlar ki, "...meydana girmədən qələbədən, ya da məğlubiyyətdən" danışmaq, seçki sonrası proseslərdə rol almağa iddia etmək gülünc görünür.**

❑ "Yeni Müsavat"

# Müxalifət iqtidarla parlament seçkilərini müzakirə etmək istəyir

## Hakimiyyətlə partiya sədrlərinin növbəti görüşünün vaxtı bəlli deyil

**Prezidentin köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovla siyasi partiyaların üçüncü görüşündən üç ay keçir. Növbəti görüşün nə zaman reallaşacağının gözlənildiyini öyrənmək üçün bu görüşlərin aktiv iştirakçısı olan KXCP sədri Mirmahmud Mirəlioğlu ilə danışdıq.**

O bildirdi ki, təmsil olunduğu "Azadlıq 2015" bloku hakimiyyət təmsilçisi ilə növbəti görüşün keçirilməsinin zamanının çatdığı barədə rəsmi mövqeyini təxminən iki həftə öncə ortaya qoyub. Görüşün reallaşması təşkilatçı olaraq Prezident Administrasiyasından asılıdır: "Təmsil olunduğumuz blok bəyan edib ki, Əli Həsənovla siyasi partiyaların sədrlərinin sonuncu toplantısından 2 aydan artıq keçdiyi üçün növbəti görüşün aktuallığı yaranıb. Növbəti görüşdə müzakirəyə çıxarılmalı olan mövzuları da ifadə etdik. Təklif etdik ki, Qarabağ məsələsi, parlament seçkiləri məsələsi növbəti görüşdə müzakirəyə çıxarılsın. İndi hakimiyyətdən məsələyə münasibətin necə olacağını gözləyirik. Görüşün təşkilatçısı Prezident Administrasiyasıdır, necə münasibət bəsləyəcəklərsə, o cür də olacaq".

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, hələlik növbəti görüşün vaxtı ona da bəlli deyil. Ancaq hər halda, bir qədər sonra bəlli olacaq: "Hakimiyyət təmsilçisi ilə siyasi partiyaların rəhbərlərinin görüşü iqtidarla müxalifət arasında bazarlıq deyil. Bu bir proses olmalıdır. Elə vaxt ola bilər ki, biz bu prosesdən konkret nəticə əldə edə bilərik. Ola bilər ki, müəyyən mərhələdə heç bir nəticə əldə edə bilmərik. Məsələn, Azərbaycanda 20 ildir seçkilər keçirilir və heç biri də demokratik keçirilmir. Amma hər dəfə seçkilər yaxınlaşanda bütün siyasi qüvvələr, cəmiyyət seçkilərə hazırlaşır. Bu baxımdan, siyasi dialoqa niyə gedilməsin. Müxalifətin özünün bu cür məsələlərə ikili yanaşması Azərbaycan üçün heç bir yaxşı nəsə vəd eləmir. Ona görə də mən siyasi dialoqun davam etdirilməsinin qəti tərəfdarıyam".



Mirmahmud Mirəlioğlu

**S.Cəlaloğlu qeyd etdi ki, nəticənin olub-olmamasından asılı olmayaraq nə vaxt dialoq keçiriləcəksə, o, mütləq orada iştirak edəcək:** "Biz bu dialoq ideyasını 2007-ci ildə irəli sürərkən bunu hərtərəfli düşünüb irəli sürmüşük. Yəni bu ideya bəzilərinin bu gün ağlına gələn şəkildə meydana çıxmayıb. Biz bunun həm elmi, həm fəlsəfi tərəflərini, başqa xalqların bu məsələdə təcrübəsini öyrənəndən sonra bu prosedurun vacibliyini dərk eləmişik və bununla da bağlı bilirsiz ki, ardıcıl olaraq təbliğat aparmışıq. İqtidarla müxalifət arasında siyasi dialoqu Azərbaycanın bugünkü vəziyyətdən çıxış yollarından biri kimi qəbul edirəm".

❑ Etibar SEYİDAĞA

# "ABŞ-Türkiyə razılaşması bölgədə dəngələri tamamilə dəyişib"

## Sülhəddin Əkbər: "Təsadüfi deyil ki, artıq Azərbaycan vətəndaşları PKK tərəfindən girov götürülür, ölkəmizə gələn yük maşınları dayandırılır, Bakı-Tiflis-Ərzurum qaz kəməri partladılır"

**Türkiyə KİV-nin xəbərinə görə, Türkiyə baş nazirinin köməkçisi Yalçın Akdoğan bildirib ki, Suruç hadisəsindən sonra PKK-nın son dövrlərdə beynəlxalq aləmdə yaratmağa çalışdığı fərqli bir imic layihəsi artıq çöküb. Onun sözlərinə görə, artıq beynəlxalq aləm Türkiyəni dəstəkləyir.**

O, həmçinin bundan sonra HDP-nin İmralıda PKK-nın rəhbəri Abdullah Öcalanla görüşə bilməyəcəyini söyləyib. Akdoğan bunun HDP-nin kürd açılımına xəyanət etməsi və Öcalanın adından yalanlar söyləməsi ilə əlaqədar olduğunu bildirib. Türkiyə silahlı qüvvələrinin PKK-ya qarşı əməliyyatları isə davam edir. PKK isə müxtəlif bölgələrdə güc strukturlarına, hərbçilərə qarşı hücumlar təşkil eləməkdədir. Bununla yanaşı artıq PKK üzvləri tərəfindən verilən açıqlamalarda narahatlıq yaşadıqları, xüsusən də ABŞ-ın Türkiyə ilə anlaşma içində olduğundan əndişə keçirdikləri müşahidə edilir. PKK üzvləri açıq şəkildə bəyan etməyə başlayıblar ki, ABŞ Türkiyə ilə razılaşma əldə edib və PKK-nı satıb. Türkiyə hökuməti buna görə əməliyyatlara başlayıb.

Qardaş ölkənin bir sıra siyasi ekspertləri də ABŞ-la razılaşma əldə olunduğunu, məhz bundan sonra Türkiyənin İŞİD və PKK-ya qarşı antiterror əməliyyatlarına başladığını bəyan edirlər.

Azərbaycanlı siyasətçilər, siyasi ekspertlər də PKK-nın Türkiyə və ABŞ arasında razılaşma əldə olunduğunu bəyan etməsinin əsaslı olduğunu bildirirlər.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bildirdi ki, həqiqətən də ABŞ-la Türkiyə arasında ciddi razılaşmalar əldə olunub. Özü də bu razılaşma bir deyil, bir neçədir. Hələlik bu razılaşmaların bütün detalları tam olaraq bəlli olmasa da bir sıra məsələlər artıq aydındır: "Yəni Türkiyə ilə ABŞ arasında bu danışıqlar ötən ilin dekabrından gedirdi. Həm ABŞ-ın önəliklərinin fərqli olması, həm Türkiyənin önəliklərinin fərqli olması bu razılaşmaların əldə edilməsini çətinləşdirirdi. Sonucda bir razılaşma əldə olunub və bu razılaşmanın gizli saxlanması onu göstərir ki, çox ciddi məsələlərdən söhbət gedir. Hələlik bəlli olan odur ki, Türkiyə aktiv şəkildə İŞİD-lə mübarizə koalisiyasına qoşulur və öz aviabazalarını ABŞ başda olmaqla müttəfiq dövlətlərinə açır. Əvəzində Türkiyənin Suriyadakı maraqları təmin olunur. Bu maraqlar necə tam olunacaq hələ tam aydın deyil. Birinci, Türkiyənin istədiyi təhlükəsizlik zolağıdır. Bu, Hələb yaxınlığına qədər 110 kilometr uzunluğunda olan bir bölgədir. Razılaşma bundan ibarətdir ki, bura İŞİD-dən təmizləndikdən sonra həmin əraziyə Türkiyənin etibar etdiyi mötədil Suriya müxalifəti türkmənlər başda olmaqla daxil olacaq və təhlükəsiz bir bölgə yaranacaq. Həmin əraziyə havadan Türkiyə daxil olmaqla koalisiya qüvvələri nəzarət edəcəklər, dəstək verəcəklər. Bununla da həm İŞİD Türkiyə sərhədlərindən uzaqlaşdırılacaq, Türkiyə sərhədlərinin toxunulmazlığı təmin olunacaq, eyni zamanda Türkiyə üzərindən İŞİD-ə qatılanların qarşısı alınacaq, həmçinin Suriyadan gələn qaçqınların orada yerləşdirilməsi mümkün olacaq.



Sülhəddin Əkbər

ABŞ-la Türkiyənin arasında bu razılaşma bölgədə dəngələri tamamilə dəyişib. Bundan öncə PKK ABŞ başda olmaqla İsrail və Qərb müttəfiqlərindən dəstək alırdı. İndi ABŞ-ın və müttəfiqlərinin Türkiyə ilə razılaşmasından çox narahatdır. PKK buna görə hesab edir ki, ABŞ yenidən onları satıb və Türkiyə ilə razılaşıb. Həqiqətən də ABŞ-Türkiyə razılaşması bölgədə dəngələri tamamilə PKK-nın əleyhinə dəyişib".

**S.Əkbər PKK məsələsində yenidən bir qütbləşmənin getdiyini də açıqladı:** "Diqqət edirsinizsə, Rusiya prezidentinin açıqlaması oldu ki, İŞİD-ə qarşı əsas koalisiyanın mərkəzində, Bağdad, Şam və PKK kürdlər durmalıdır, arxasında isə Rusiya və İran dayanmalıdır. Balansın digər tərəfində isə Türkiyə, ABŞ və NATO üzrə müttəfiqlər dayanır. Yəni ənənəvi bloklaşma yenidən bərpa olundu. Bu da PKK-nı çox ciddi şəkildə narahat edir. PKK ənənəvi dəstəkçilərinə qayıda biləcəyi ilə ABŞ-ı təhdid edir. Diqqət edirsinizsə, PKK öncəliyi Azərbaycanla, Ermənistanla sərhədə verir. MİT-in də mətbuata sızdırdığı bilgilərə görə PKK istəyir ki, İqdır, Qars, Ağrı, Ərdahan, Ərzurum bölgəsində hakimiyyəti nəzarəti ələ alsın və Ermənistandakı Rusiyanın 102-ci hərbi bazasından dəstək almaqla ənənəvi xətti bərpa eləsin. Bu xətt həm Azərbaycanın maraqların birbaşa təhdiddir. Heç təsadüfi deyil ki, artıq Azərbaycan vətəndaşları PKK tərəfindən həmin bölgələrdə girov götürülür, Azərbaycana gələn yük maşınları dayandırılır, Bakı-Tiflis-Ərzurum qaz kəməri partladılır. Bunlar Azərbaycana da mesajlardır ki, Azərbaycan Türkiyən yanında yer almasın. Beləliklə, artıq bölgədə dəngələr tamamilə dəyişib. Düşünürəm ki, bu Türkiyənin və Azərbaycanın maraqlarına uyğun bir dəyişmədir. Azərbaycan 2010-cu ildə Türkiyə ilə imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqaviləni əsas tutaraq Türkiyənin yanında yer almalıdır, PKK-ya olan baxışına köklü dəyişiklik etməlidir, Rusiya ilə siyasətinə korrektələr eləməlidir".

❑ Etibar SEYİDAĞA

# İnsanlar niyə sovetlər üçün nostalji keçirir?..



Hüseynbala SƏLİMOV

**Qonşu Rusiyada yeni mübahisə predmeti yaranıb. Vladimir Jirinovskinin Liberal-demokrat Partiyası Dumaya sovet quruluşu ilə faşizmi eyniləşdirməyə görə cinayət məsuliyyəti nəzərdə tutan qanun layihəsi təqdim edəndən sonra politoloqlar, sosioloqlar və hətta kulturoloqlar təşvişə düşüblər...**

İnsanların düşüncəsinə hakim kəsilmək istəyinin əcaib formasını biz bir çox ölkələrdə qondarma "erməni genosidi"ni tanımamağa, ona şübhə etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulan qanun qəbul edilərkən görmüşdük...

İndi Rusiyada Vladimir Jirinovskinin partiyasının qəbul etdirməyə çalışdığı qanun layihəsi də haradasa, bizə bunu xatırlatdı...

Sovet dövrü haqqında fikirlər ziddiyyətlidir. Onu pisləyənlər də var və bu gün Rusiyada olduğu kimi, tamam reabilitasiya etmək istəyənlər də...

Amma mən bir özəl təəssüratımı yada salacam. Bunu bir neçə dəfə yazmışam.

Qərəz, tələbəlik vaxtı Moskvada bir sənədli filmə baxdım. Adı da "Adi faşizm" idi. Filmə baxandan sonra mənə qəribə bir fikir hakim kəsildi - qeyri-ixtiyari olaraq düşündüm ki, əcəba, bu ki, sovetlər haqqındadır!..

Sonradan həmin filmə bir neçə dəfə baxdım. Amma hər dəfə bu fikir məni tərk etmədi. Mən başa düşürəm, sovetlərə qiymət verəndə biz psixoloji maneələrlə rastlaşırıq, çünki çoxumuzun uşaqlıq və gənclik dövrü o illərə və o quruluşa təsadüf edir...

Amma totalitarizm totalitarizmdir, istər onun ideoloji bazası nasional-sosializm olsun, ya da ki, kommunizm olsun. Hər iki halda başqa cür düşünən və hətta başqa cür görünən insanları bir şey gözləyirdi - ölüm...

Repressiyaların miqyası və miqdarı hər iki ölkədə -Almaniyada da, SSRİ-də də eyni idi, hətta bəlkə SSRİ-də daha çox idi. Ona görə ki, SSRİ-də əhali, deməli, həm də "xalq düşmənləri"nin sayı daha çox idi...

Sovet düşərgələri sayına və qəddarlığına görə də geridə qalmırdı. Bəli, ola bilsin, orada insanları yandırmırdılar, qazla boğmurdular, amma aclıq, təhqir və Sibirin şaxtası - məhbusların qisməti bu, idi...

Mənə ən çox qəribə gələn isə bilirsiniz nədir? A.Soljenitsın da Rusiyanı təmsil edir, V.Jirinovski də...

Biz sovet həbs düşərgələri haqqında ilk dəfə A.Soljenitsından eşitdik, onun əsərlərindən oxuduq. Doğrudanmı, bu gün Rusiya adlı ölkədə "dəmir Feliksin şineli"ndən çıxmış bəzi siyasət və dövlət adamları bir gün A.Soljenitsının də kitablarından tonqal qalayacaqlar?..

Belə olsa, elə də təəccüblənmirəm, çünki Rusiya getdikcə daha çox indiki Şimali Koreyanı xatırladır - bir vaxtlar çəkilmiş və hətta yoxa çıxmış kütləvi psixoz yenidən insanların şüuruna qayıdır...

Necə olar bilər ki, insan totalitar keçmiş üçün nostalji keçirmiş olsun? Bunun bir yozumu budur ki, totalitarizmdən yenicə çıxmış insan birdən-birə böyük bir yükün dövlətin üzərindən götürülərək onun çiyinlərinə qoyulmasına dözə bilmir və dövlətlə özü arasında yaranmış boşluq, uçurum ona dəhşətli görünür! Bu yerdə yadıma Robert Rojdestvenskinin ilk şeirlərindən biri düşür. O, yazırdı ki, biz rahat yatırıq, amma İ.Stalin yoldaş yatmır, bizim haqqımızda düşünür...

Amma sonradan İ.Stalin yoldaşın nə düşündüyünün əsl təfərrüatları məlum oldu. Fəqət, buna baxmayaraq insanlar yenə də həmin "düşüncələr"in nostaljisini yaşayırlar. Niyə belə olur? Nədən belə baş verir? Görünür, bu illər hədər keçib - Rusiyada fərd, şəxsiyyət yetişməyib və liberal dəyərlər oturuşmayıb. Bəlkə də insanlar 1991-ci ildən sonra baş verənlərə də elə NEP kimi müvəqqəti bir proses tək baxırlar?

Bəlkə də onlar düşünürlər ki, bir gün bütün bunlara yenə də son qoyulacaq və yeni "burjuy"ların bu vaxta qədər qazandıqları qarət edilib onlara paylanacaq, özləri isə yeni yaradılan "QUIAQ"-lara, həbs düşərgələrinə göndəriləcəklər?..

Bunun tamam belə olub-olmadığını deyə bilmərik, amma Rusiyada azad insan yetişmədi. Həm də təkcə Rusiyadamı?..

Çoxu deyir ki, bəli, insanlar keçmişin nostaljisini yaşayır, amma səbəbini demirlər. Demirlər ki, axı biz onlara yeni quruluşun üstünlüklərini yaşamağa, özlərini azad hiss etməyə və bu azadlığı qiymətləndirməyə imkan vermədik!..

Əgər bütün bu 25 illik proseslərin nəticəsi keçmiş kommunist nomenklaturasının kapitalistlərə çevrilməsi, onların mal-mülk və sərvət sahibi olması olacaqdısa həmin o 20-30 ili yaşamağa dəyərdimi?..

**Bəlkə insanlar bunu düşünüb keçmiş üçün nostalji keçirirlər? Axı o keçmişdə heç olmasa yalandan da olsa, bərabərlik vardı...**



# Sabir Rüstəmxanlı seçki taktikasını açıqladı

## "İki variantın üzərində işləyirik"

**Vətəndaş Həmrəyliyi Partiyası (VHP) 1 noyabr parlament seçkilərinə hazırlaşır. Lakin seçkidə neçə namizədlə iştirak edəcəyi hələ dəqiqləşməyib. Bu barədə "Yeni Müsavat"a açıqlamasında VHP sədri, deputat Sabir Rüstəmxanlı bildirdi ki, rəhbərlik etdiyi partiya yaranandan indiyə qədər keçirilən bütün parlament və bələdiyyə seçkilərində iştirak edib: "Bütün çağırışlarda parlamentdə Vətəndaş Həmrəyliyi Partiyasının deputatları olub.**

Bu il də şübhəsiz ki, parlament seçkilərində iştirak edəcəyik. Bloklara qoşulmamaq haqqında partiyanın əvvəldən qərarı var. Bu, o demək deyil ki, biz siyasi partiyalarla əməkdaşlıq eləmirik, əməkdaşlıq eləmək niyyətimiz yoxdur. İkitərəfli danışıqlar gedir, müəyyən seçki dairələrdə hansısa problemlər olsa danışmağa, razılaşmağa nail olmaq üçün əməkdaşlıq qaçılmaz bir yoldur. Partiyalarla əməkdaşlıq bəlkə vaxtilə bloklarda olduğumuzdakından daha sıxdır, səmimidir. Seçki blokları yaranır, dağılır və həmçinin də ortada narazılıqlar qalır. Bəzən ciddi hazırlıq olmadan, epizodik bloklar yaranır. Bu cür blokların da təbii ki, ciddi effekti ola bilməz. Ona görə də biz qatılmırıq".

**VHP-nin seçkilərdə neçə namizədlə iştirak etməsi və şəxsən özünün seçkilərdə namizədliyini irəli sürüb-sürməyəcəyinə gəlincə, Sabir Rüstəmxanlı məlumat verdi ki, seçkidə nə qədər dairədən namizəd irəli sürməsi ilə bağlı iki fikir var:** "Birinci fikir belədir ki, bütün dairələri əhatə eləmək. Belə olanda bəzi dairələr olur ki, oradan namizəd irəli sürülməsi yalnız siyahını doldurmaq üçün edilir. Bunu eləmək mümkündür. Bizim partiyanın 80-ə yaxın rayonlarımızın əksəriyyətində yerli təşkilatı var və bu işi görmək, imza toplamaq çətin deyil. Amma ikinci yol da var ki, mənə ikinci yol daha normal görünür. Bu da ondan ibarətdir ki, dairələrin çoxluğu dalınca qaçmamaq, daha real görünən dairələrdə daha real görünən namizədləri müdafiə eləmək. Dairələrin çoxluğu dalınca yox, reallığın dalınca qaçmaq variantı daha cəlbedicidir. Bu iki variantın üzərində işləyirik. Müzakirələrin nəticəsində bu variantların hansı daha çox məqbul sayılsa onun da üzərinə dayanacağıq. Məncə, say dalınca yox, partiyanın üzvü oldu-olmadı daha keyfiyyətli namizədlər verməli haqqında düşünməliyik.

Şəxsən özümün namizədliyim məsələsinə gəldikdə, düzünü deyim ki, həm Milli Məclisdə, köhnə deputat yoldaşlarım, həm seçicilərim arasında tez-tez belə deyirlər ki, sən burda olmalısan, seçilməlisən. Belə söhbətlər olur. Bu beş ildə də uğurlu nəticələr göz qabağındadır. Hər il sorğu keçiriləndə ən fəal deputatlar sırasında mənim adım olub. Bunları düşünəndə əslində seçkiyə getmək doğru qərardır. Amma hələ tam son sözümüzü də deməmişik. Ümumiyyətlə hələ namizədlərin rəsmi irəli sürülməsi prosesi də başlanmayıb. Ona görə də bu barədə qəti bir söz deyə bilmərəm. Hər halda çalışacağıq ki, partiyamız Milli Məclisdə təmsil olunsun, əsas niyyətimiz budur".

❑ **Etibar SEYİDAĞA**

# Müsavat Məclisinin növbədənkənar sessiyası təyin edildi

**Avqustun 10-da Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, iclasda qərarların icrası və görülən işlər müzakirə edilib. Partiya rəhbərliyi nümayəndələrinin iştirakı ilə keçirilən Suraxanı, Füzuli, Şirvan təşkilatlarında olan toplantılar barədə məlumat verilib. Həmçinin Leyla Yunus, Arif Yunus və Xədicə İsmayılın davam edən məhkəmələri, bu proseslərdə baş verənlər barədə məlumatlar dinlənilib. Hər iki məhkəmənin faktiki olaraq qapalı keçirilməsi, Müsavat başqanı və digər ictimai fəalların, jurnalistlərin məhkəməyə buraxılmaması kobud qanun pozuntusu və hakimiyyətin məhkəmələri siyasi nəzarətdə saxlaması kimi qiymətləndirilib.**

Müsavat Divanı jurnalist Rasim Əliyevin sosial şəbəkədə yazdığı tənqidi fikirlərə görə döyülərək qətlə yetirilməsi söz azadlığına qarşı dözümsüzlüyün növbəti nümunəsi, ölkədəki qanunsuzluğun, özbaşınalığın nəticəsi kimi dəyərləndirib. Hakimiyyətdən söz azadlığına qarşı intensiv xarakter daşıyan hücumlara son qoyulması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, jurnalistlərə qarşı törədilən cinayət faktlarının ciddi araşdırılaraq müvafiq tədbirlərin görülməsi tələb edilib. Məsələnin ciddiliyini nəzərə alaraq Rasim Əliyevin qətlə yetirilməsi ilə bağlı Divan adından ayrıca bəyanat verilməsi qərara alınıb.

**Məlumatda sonra deyilir ki, iclasda Müsavat Partiyasının Protokol Xidmətinin Əsasnaməsi müzakirə edilərək təsdiq olunub.**

Divanda Parlament seçkiləri, bu seçkilərə hazırlıqla bağlı görülən işlər barədə geniş müzakirələr aparılıb. 80-dək seçki dairəsi üzrə namizədliyini irəli sürmək niyyətində olan partiya üzvlərinin siyahısı haqda məlumat verilib. İki həftə ərzində seçki dairələri üzrə namizədlərin ilkin siyahısının müəyyənləşməsinin yekunlaşdırılması haqda tapşırıq verilib.

Seçkilərdə iştirak edəcək namizədlərin siyahısının müzakirəsi və təsdiqi üçün 29 avqustda partiya Məclisinin növbədənkənar sessiyasının çağırılması barədə qərar qəbul edilib.

**Sonda cari məsələlərə baxılıb.**

❑ **E.SEYİDAĞA**

# Rus rublundan manata gələn təhlükə...

## Ekspertlər bildirirlər ki, manat rubla nisbətən möhkəmləndikcə, azərbaycanlı yerli iş adamlarının ixrac qabiliyyəti məhdudlaşır...



**Rusiya rublu yenidən dollara nisbətən ciddi dəyər itirməkdədir. Ekspertlərə görə, ilin əvvəlindən "özünə gəlməyə" çalışan rus pulu cəmi altı ay duruş gətirə bilib. Ekspertlər bildirirlər ki, İranın Qərblə münasibətlərini istiləşməsi sadəcə dünya bazar silkələməyib, həmçinin Moskvada havanın dərəcəsini qaldırıb.**

"Yay mövsümündən əvvəl 1 dollar almaq üçün 48 rubl təklif edildiyi halda, indi ruslar 63 rubllarından keçməlidirlər. Son bir ayda 14 faiz dəyər itirən rubl dollar qarşısında son həftə 7 faiz geriləyib. Bütövlükdə, son bir ildə rubl məzənnəsi 55 faizdən çox ucuzlaşıb",- deyə ekspert Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, Rusiya ölkəmizin qeyri-neft ixracatında əsas ticarət və iqtisadi tərəfdaşımız olduğunu nəzərə alsaq rublun dəyərsizləşməsi bu ölkəyə ixrac potensialımıza təsir göstərməkdədir: "Rublun məzənnəsindəki azalmalar artıq 2014-cü ildə Rusiya Azərbaycan ticarət dövriyyəsində özünü göstərdi. Belə ki, ötən ilin yekunlarında iki ölkə arasındakı ticarət dövriyyəsi rəsmi statistikada əvvəlki ildəki 2 milyard 583 milyon dollardan 1 milyard 954 milyon dolları azaldı. Bu, özünü Rusiyaya ixracatımızda da göstərdi. Şimal qonşumuza 2013- cü ildə 1 milyard 77 milyon dollarlıq mal göndərdiyimiz halda, bu göstərici ötən il 640 milyon dollar olub".

**Ekspertin sözlərinə görə, digər tərəfdən, Rusiyada rublun dollara nisbətən məzənnədən düşməsi rublun manata nisbətən kursunu da azalmasına gətirib çıxarır:** "Yəni manat da rubla nisbətən möhkəmlənir. Bu, Rusiyaya məhsul ixrac edən azərbaycanlı yerli iş adamlarının ixrac qabiliyyətini məhdudlaşdırır. Faktiki olaraq Azərbaycan məhsullarının Rusiyada bahalaşmasına gətirib çıxarır. Bununla yanaşı, Azərbaycan fermerlərinin istehsal etdiyi tərəvəz məhsullarının Rusiya bazarında müqayisəli üstünlüyə malik olmasını nəzərə alsaq rublun qara günləri hələlik Azərbaycan iqtisadiyyatına hiss edilən təsir göstərməyəcək. Bununla yanaşı, rublun dəyərsizləşməsi Azərbaycanın Rusiyaya ixracatına orta müddətli dövrdə təsir göstərə bilər".

**V.Bayramov qeyd edib ki, məzənnənin aşağı düşməsi Azərbaycana göndərilən Rusiya mallarının qiymətlərinə artıq təsir göstərməkdədir:** "Növbəti aylarda biz bunu daha aydın şəkildə görəcəyik. Xüsusən də Rusiya istehsalı olan bəzi tikinti materiallarının qiymətində endirimlərin olacağı istisna edilmir. Rublun məzənnəsi aşağı düşdükdən sonra isə bu ölkədə yaşayan həmyerlilərimizin də biznesində durğunluq müşahidə ediləcək. Bu baxımdan onların Azərbaycanda göndərdikləri vəsaitlərin məbləğində azalma müşahidə ediləcək. Bütövlükdə 2015-cü ildə azərbaycanlıların Rusiyadan göndərdikləri vəsaitin məbləğinin 30 faiz azalacağı proqnozlaşdırılır".

**Ekspert Natiq Cəfərli** isə qeyd edib ki, Rusiyadan Azərbaycana göndərilən vəsaitin həcmi onsuz da azalırdı: "Bundan sonra da azalma davam edəcək. Bundan sonra da azalma daha da sürətlənə bilər. Çünki gəlirlər azaldıqca, rublla soydaşlarımızın göndərdiyi vəsait də azalacaq. Digər səbəb isə Rusiyadan gələn malların cəlbedciliyi artdıqca, Rusiyaya gedən malların həcmində azalma müşahidə oluna bilər. Çünki Azərbaycan fermerləri Rusiyaya əsasən kənd təsərrüfatı məhsulları göndərir. Azərbaycan fermerləri rus rublunun dəyərdən düşməsi və məzənnənin stabil olmamasından narahatdırlar. Çox zaman qazancdan çox itkilərlə üzləşirlər. Fermerlər qorxaraq Rusiya ilə əlaqələrə o qədər də maraq göstərmirlər. Görünən odur ki, həmişə rus rublunun oynaq olduğu dövrlərdə Azərbaycandan Rusiyaya gedən kənd təsərrüfatı məhsullarının həcmi azalır. Bunun çox sadə bir izahı var. Çünki azərbaycanlılar Rusiya ərazisində hər hansı məhsullarını satarkən əldə etdikləri rublları yenidən dollara çevirərək dollar üzərindən gəlirlərini-çıxarlarını hesablayırlar. Rublun düşməsi sonuc etibarı ilə çox vaxt onların xərclərini ödəmir. Ona görə də məzənnənin belə oynaqlığı artdığı dövrdə Azərbaycandan kənd təsərrüfatı məhsullarının ixracatında da zəifləmə müşahidə olunur".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 174 (6202) 11 avqust 2015

**Pirəli Orucovla Tiflisdə görüşdük. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra hərbi prokurorluğun yaradılması prosesinin əsas iştirakçılarından olan, hakimiyyət dəyişikliyindən sonra prokuror vəzifəsindən könüllü gedərək Müsavat Partiyasında siyasi fəaliyyətə başlayan, hakimiyyətin qəzəbinə tuş gəlib CM-nin terrora cəhd maddəsi ilə 3 ilə yaxın MTN təcridxanasında saxlanan, sonradan Avropa İnsan Haqları Məhkəməsində Azərbaycan hökumətinə qələbə çalan Pirəli Orucov 3 ilə yaxındır doğulduğu Gürcüstanda yaşayır. Vəkillik fəaliyyəti ilə məşğuldur. Gürcüstanın bu günü haqqında danışan köhnə hərəkatçı deyir ki, əsas nigarançılığı Azərbaycandandır.**



# Keçmiş prokuror-müsavatçı Tiflisdə müxbirimizə nələr danışdı...

## Pirəli Orucov: "Belə mübarizə olmaz"

- Gürcüstan bəzən yavaş, bəzən isə sürətli olsa da bir şəkildə inkişaf edir. Ölkədə qanunun hakimiyyəti yaradılıb, seçkilər azaddır, siyasi mübarizə imkanları Azərbaycandakı ilə müqayisədə qat-qat sərbəstdir, məhkəmə sistemində islahatlar aparılır, korrupsiya, rüşvət yuvaları dağıdılıb. Ancaq bu demokratik dəyişikliklər hələ ölkənin tam rifah içərisində yaşamasına gətirməyib. İşsizlik, iqtisadiyyatın demək olar bütün sahələrinin ağır durumu ölkəni geri salır. Təbii sərvətlər büdcəyə ciddi gəlir gətirəcək səviyyədə deyil. Əsas qaynaqlar illər öncə olduğu kimi Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün Azərbaycanın ödədiyi tranzit haqqı və turizm gəlirləridir. Son illər Gürcüstana qoyulan investisiyaların da həcmi azalıb. Bu səbəblərdən ölkədə köklü dəyişiklik hiss edilmir. Bununla belə, vətəndaş öz dövlətinin sahibidir. Hakimiyyətin işini bəyənməsə onu seçki yolu ilə iqtidardan sala bilir. Gürcüstanda yaşasam da əsas narahatlığım Azərbaycanla bağlıdır. Bu ölkəyə köçəndən sonra fəal siyasətdən də uzaqlaşmışam. Ancaq ölkəmdə gedən siyasi proseslərlə maraqlanıram, izləyirəm. Son zamanlar müxalif düşərgənin durumu məni çox narahat edir. Elə bir dönəm gəlib ki, uzun illər bərabər mübarizə yolu keçən insanlar bu gün bir-birini satqınlıqda ittiham edir, bir-birinə çamur atır. Bunlar çox böyük təəssüf hissi yaradır. Ən çox təəssüfləndiyim məqamlardan biri də "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğluna qarşı hücumlardır: "Uzun illər ölkənin aparıcı media orqanı kimi "Yeni Müsavat" haqqın-ədalətin yanında olub, yeri gələndə siyasi proseslərin önündə gedib. İndi iş elə gətirib, Azərbaycan cəmiyyətinin inkişafı üçün əlini ağdan qaraya vurmayanlar, işləri-gücləri yalnız müxalif düşərgədə qarışıqlıq, inamsızlıq yaratmaq olan insanlar Rauf Arifoğlunu hədəfə alıb. Nə zamana qədər bu insanlar düşünəcəklər ki, doğru yalnız onların dedikləridir? Söz azadlığını, fikir müxtəlifliyini normal qəbul etməyən insanlar özlərini necə demokrat adlandıra bilərlər? Onlar öz səhvlərini görmürlər. Həyatını Azərbaycanda söz və mətbuat azadlığına sərf edən insanları bu cür çirkaba batırmaq cəhdi demokratik prosesə ancaq ziyan gətirə bilər".

**"Mənim burdan Azərbaycan hakimiyyətinə barmaq silkələməyim ən azından ciddi görünməz, üstəlik böyük qınaq yaradar"**

***- Pirəli bəy, sizcə, müxalifət düşərgəsində münasibətlər niyə bu qədər kəskindir?***

- Görünür səbəb uzun illər davam edən mübarizənin heç bir nəticə verməməsidir. Əgər nəticə yoxdursa, demək, taktikada müəyyən dəyişikliklər etmək gərəkdir. Mən medianı izləyirəm, bəzi qəzetlər Rauf Arifoğlunun "Əməkdar jurnalist" adı alması ətrafında elə bir ajiotaj yaradıb ki, sanki bütün demokratik proses həmin ödüldən asılı olub - Rauf Arifoğlu ödül alıb və prosesi saxlayıb. Mən uzun illər Azərbaycanın demokratik cameəsində təmsil olunmuşam. Orada sağlam düşüncəli nə qədər insan tanıyıram. Ancaq indi çoxları yanlış addımlar atır. Bu gün münasibətlər o həddə gəlib ki, müxalif düşərgə özü özünə iqtidarın 20 ildə vura bilmədiyi zərbəni vurur. Rauf Arifoğlu necə ki, 20 il öncə tənqidçi mediaya rəhbərlik edirdi, bu gün də həmin mövqeyindədir. Hər gün bu qəzetin səhifələrində nə qədər tənqidi material yer alır. Ona görə də Rauf Arifoğlunun ünvanına "iqtidara satlıb" demək ən azı insafsızlıqdır.

***- Siz Gürcüstandan analogiyalar gətirə bilərsinizmi? Məsələn, bir müxalifətçi siyasi mübarizədən çəkilib öz peşəsi ilə məşğul olursa, ya hansısa partiyaya transfer baş verirsə, cəmiyyət bu addımı bizdəki kimi top-tüfənglə qarşılayır?***

- Yalnız ən yaxın çevrələr kəskin reaksiya verir. Bu da aydındır - çünki kiminsə getməyi təşkilat üçün həmin şəxsin siyasi çəkisinə görə güc itkisidir. Ancaq bu, qısamüddətli olur. Gürcüstan cəmiyyəti insanların seçiminə sayğı duymağı artıq öyrənib. Siyasi mübarizədə taktika hər zaman dəyişə bilər. Bu, son dərəcə doğal davranışdır. Bu iqtidarın dönəmində Rauf Arifoğlu qədər çətinliklər görən çox az insanlar var. Məhrumiyyətlər, hədə, təhdid görüb, həbsdə yatıb, mitinqlərdə döyülüb, eyni zamanda siyasi düşərgənin əsas tribunasına rəhbərlik edib. İndi o deyir ki, mən siyasi mübarizədən çəkilib qəzetçiliklə məşğul olmaq istəyirəm. Bu, onun seçimidir. Kim nə haqla ona "sən mütləq biz deyəni etməlisən" əmri verə bilər? Xüsusi olaraq vurğulamaq istəyirəm ki, bizim Rauf Arifoğlu ilə heç zaman xüsusi yaxınlığımız, dostluğumuz olmayıb. Ancaq ona olan haqsızlıqlarla bağlı susmağı vicdanıma sığışdırmıram. Belə mübarizə olmaz. Bir-birinə sayğı duymayan, seçiminə hörmət etməyən insanlar birlikdə güclü ola, hədəfə doğru gedə bilməzlər. Ölkədə Rauf Arifoğlu qədər baş redaktorluq stajı olan ikinci şəxs yoxdur. Azərbaycanın ən uzunmüddətli media layihələrindən birinin rəhbəridir. Əgər onun yaratdığı qəzet bu qədər ağır basqıya, sınağa tab gətirərək nüfuzlu bir quruma çevrilə bilərsə, müxalif düşərgə bu insanı nəinki hədəfə almamalı, əksinə onun təcrübəsindən yararlanmalı idi. Çox təəssüf, biz bunun əksini görürük.



**"Bir-birinə sayğı duymayan, seçiminə hörmət etməyən insanlar birlikdə güclü ola, hədəfə doğru gedə bilməzlər"**

***- Pirəli bəy, siz mühacir həyatı yaşamırsız. Ən azı ona görə ki, doğulduğunuz ölkədəsiniz. Ancaq Azərbaycanda könüllü uzaqlaşmadığınız da bəllidir. Siz ölkədən kənarda siyasi mübarizə məsələsinə necə baxırsınız? Bu hansı hallarda effektli ola bilər?***

- Öncə onu deyim ki, kənardan ölkədəki mənzərə sanki daha aydın görünür. Ancaq bu o demək deyil ki, kənarda oturub ölkədə çətin şərtlərdə yaşayan, mübarizə aparan insanlara dərs keçmək, onlara "resept yazmaq" olar. Uzaq xaricdə deyiləm, Azərbaycandan bu tərəflərə get-gəl çoxdur. Yəni bizim ölkənin gerçək durumu ilə bağlı dəqiq informasiya almaq imkanlarımız uzaq xaricdə yaşayanlardan da çoxdur. Bununla belə, mənim burdan Azərbaycan hakimiyyətinə barmaq silkələməyim ən azından ciddi görünməz, üstəlik böyük qınaq yaradar. İnsan dəyişmək istədiyi cəmiyyətdə yaşamalıdır. Mən burdan ora hakimiyyəti söyməyi özümə sığışdırmaram. Ona görə ki, burda rahatam, Azərbaycandakı qədər təhlükədə deyiləm, istəsəm də oradakı insanların necə yaşadığını oradakı qədər hiss eləyə bilmərəm. Mən mühacirətdə olan bəzi insanların fəaliyyətini izləyirəm və açığı, onların çoxunu anlamıram. Niyə mənim mübarizə yoldaşlarım bugünə düşüblər, niyə reallıq hisslərini bu qədər itiriblər? Belə mübarizə olmaz. Bütün bunlar müxalifətin keyfiyyətcə zəifləməyinə, toplumun onlara etimadının azalmasına səbəb olur. Bu gün müxalifət daxilindəki didişmələr əsas hədəfi - demokratiya uğrunda mübarizəni üstələyir. Seçkiyə çox qısa müddət qalır, ancaq ölkədə seçki ovqatı yoxdur.

***- Sizcə, bu məsələdə iqtidarla bərabər müxalifət də məsuliyyət daşıyır?***

- Əlbəttə. Cəmiyyəti toparlamaq, onu demokratik proseslərə hazır vəziyyətdə saxlamaq müxalifətin görəvidir. Demokratik düşərgənin içərisindəki münasibətlər müxalifətin strategiyasına da təsir edir. İllərdir Rusiya tənqid olunur, bu ölkə ilə yaxınlaşma ölkənin milli maraqlarına zidd sayılır. Ola bilər bu belədir. Ancaq bu siyasəti ustalıqla aparmaq gərəkdir. Cəmiyyət faktiki olaraq ikiyə parçalanıb. Bir hissə Rusiyaya, bir hissə Qərbə meyllidir. Bir tərəf o birinə deyir, sən Rusiyaya işləyirsən. O zaman həmin şəxslər də eyni addım ataraq qarşı tərəfi Qərbə işləməkdə ittiham edə bilər. Azərbaycan kimi kiçik ölkələrin həm iqtidarları, həm də müxalifətləri geosiyasi durumdan asılı olaraq çevik siyasət yürütməlidirlər. Çevrəmizdəki geosiyasi duruma baxanda anlaşılır ki, yalnız maraqlar uğrunda mübarizə gedir. Azərbaycan iqtidarı öz siyasətini müəyyən qədər bu duruma adekvat şəkildə həyata keçirə bilir, müxalifət isə 20 ildi eyni yanlışlıqları təkrarlamaqla məşğuldur. Ard-arda baş verən uğursuzluqlar intellektualları, təcrübəli insanları müxalifətdən uzaq salıb - xeyli insan prosesdən çəkilib, böyük bir müxalif nəsil bu gün meydanda deyil. Bütün bunların günahını yalnız və yalnız iqtidarda aramaq doğru deyil. Güclə hesablaşırlar - dünyanın qanunun budur. Nəzəriyyədə hər şey fərqli ola bilər, ancaq bir yol nəticə vermirsə, demək, hədəfə çatmaq üçün müxtəlif variantlar üzərində iş getməlidir. Bütün iqtidarlara hakimiyyətlərini qorumaq üçün passiv xalq sərf edir. Xalqı passivlikdən qorumaq müxalifətin funksiyasıdır. Siyasi rəqabət imkanlarının olmaması, repressiyaların baş verməsi, insanların ölkədən didərgin salınması reallıq olsa da, səbəbləri yalnız bir tərəfdə axtarmağı doğru saymıram.

Biz öz yanlışlıqlarımızı da görməyi bacarmalıyıq. Ən əsası isə bu səhvləri bir daha təkrarlamamaqdır.

**"Bəzi qəzetlər Rauf Arifoğlunun "Əməkdar jurnalist" adı alması ətrafında elə bir ajiotaj yaradıb ki, sanki bütün demokratik proses həmin ödüldən asılı olub - Rauf Arifoğlu ödül alıb və prosesi saxlayıb"**

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 174 (6202) 11 avqust 2015

**Krımın Rusiya tərəfindən ilhaqından sonra yarımadanın yerli sakinləri olan tatarların durumu pisləşib. Tatarların işğalla barışmaması və əsasən Ukrayna hakimiyyətini dəstəkləməsi Rusyada qəzəblə qarşılanıb. Türkiyə hakimiyyəti Rusiya rəhbərliyi ilə münasibətlərindən istifadə edərək Krım mövzusunda müəyyən addımlara nail olmaq istəsə də, görünən odur ki, Ankara və Moskva Krım mövzusunda dil tapa bilmirlər.**

# "Türkiyənin Krım siyasəti çox ehtiyatlıdır"

## Toğrul İsmayıl: "Əsas gözlənti də odur ki, Rusiya tatarlar mövzusunda vədlərini yerinə yetirəcək"

Xüsusən də ötən həftə Türkiyədə Krım tatarlarının qurultayından sonra Rusiyada sərt etirazlar doğurub. Yarımadanın yeni rəhbərliyi, eləcə də Moskva Ankaranı dolayısı ilə də olsa tatarları qızışdırmaqda günahlandırır. Bəs Ankaranın tutumu nədir, proseslərin bundan sonrakı gedişatını necə hesablayır? Krım mövzusunda Ankaranın tutumunu **azərbaycanlı alim, TOBB universitetinin dosenti Toğrul İsmayıl**la müsahibədə dəyərləndirdik.

***- Ötən həftə Türkiyədə Kım mövzusunda bir toplantı oldu. Bundan dərhal sonra Rusiyadan və eləcə də Krımın yeni rəhbərliyi tərəfindən Ankaranın ünvanına sərt tənqidlər gəldi. Türkiyənin Krım mövzusunda mövqeyi necədir? Ankara bu gedişatı necə qiymətləndirir?***

- Krım mövzusunda Ankaranın mövqeyi qətidir. Türkiyə Ukraynanın razi bütövlüyünü tanıyır, Krımı Ukrayna ərazisi hesab edir. Bundan dönüş olması mümkün deyil. Bunun bir neçə səbəbi var. Birincisi, Türkiyə beynəlxalq münasibətlər sistemi, beynəlxalq hüquq çərçivəsində hərəkət edir. Çünki bölgədə hər hansı bir ərazi dəyişikliyi olması Türkiyənin maraqlarına uyğun deyil. Bildiyiniz kimi, hazırda Türkiyənin ətrafında aktiv siyasi proseslər gedir, münaqişələr mövcuddur. Bu səbəbdən də 90-c illərdən bu yana Türkiyənin bu istiqamətdə siyasəti dəyişməyib. Ətraf ölkələrin - İran, İraq, Suriya, Gürcüstan və digər ölkələrin ərazi bütövlüyünü müdafiə edir. Ankaranın mövqeyi ətraf ölkələrdə ərazi və sərhədlərin dəyişdirilməsinə qarşıdır.

Ancaq ümumi baxdıqda Türkiyə üçün Krımın hansı ölkədə olmasının Türkiyə üçün fəri yoxdur. Yəni Krımın hansı ölkənin ərazisi olması məsələsi Türkiyə üçün həlledici məsələ deyil. Yəni "Misaki Milli" sərhədlərində Krım yoxdur. Yəni dolayısı ilə Krım Türkiyə ərazisi olaraq görülmür, bir başqa mənada Türkiyə bu reallığı qəbul edib. Bu mənada Rusiyanın Krım mövzusunda Türkiyəni ittiham etməsinin heç bir əsası yoxdur. Türkiyə beynəlxalq hüquq və beynəlxalq münasibətlərə əsaslanaraq hərəkət edir.

***- Ancaq rusların bəyanatlarından belə hiss olunur ki, onları narahat edən əsas məsələ Krım tatarlarının Türkiyə ərazisində təşkilatlanması və Ankaranın onları dəstəkləməsidir. Xüsusən də narahatlıq doğuran əsas məqam Krım taborunun yaradılmasıdır.***

- Krım müsəlman batalyonunun yaradılması Ukraynanın təbliğat mexanizmidir, bunun Türkiyə ilə heç bir əlaqəsi yoxudur. Əgər bir rus siyasətçi və ya ekspert buna görə narahat olub Türkiyəni ittiham edirsə, deməli o, həqiqəti bilmir. İkinci tərəfdən, Krım türklərinin qurultaylarını Türkiyədə keçirməsi daha məntiqi idi. Çünki rəsmi olmasa da, qeyri-rəsmi məlumatlara görə, Türkiyədə 5 milyondan çox Krım əsilli insan yaşayır. Dünyada ən böyük Krım lobbisi Türkiyədədir. Və bu mənada bir zamanlar Osmanlı torpağı olmuş, Türkiyə ilə mənəvi bağları hələ də güclü olan bir ərazidir. Türkiyədə hələ də çoxlu sayda ailələrin Krımda əqrəbaları var. Bu baxımdan düşünürəm ki, qurultayın Türkiyədə keçirilməsi ən məntiqli addım idi. Burda daha bir mühüm məqam ondan ibarətdir ki, bu tədbirdə Türkiyənin rəsmi dairələri tərəfindən Rusiyaya yönəlik hər hansı sərt tənqid yox idi.

***- Siz maraqlı bir məqama oxundunuz ki, Türkiyə üçün Krımın Ukrayna və ya Rusiya ərazisi olmasının Türkiyə üçün ciddi fərqi yoxdur. Ancaq bir məsələ var ki, Krım tatarlarının işğala qarşı dirənməsi və Türkiyənin onları dəstəkləməsi Rusiyanın tatarlara qarşı qəzəbini artırır və onların yarımadada yaşamalarını çətinləşdirir.***

- Zənn etmirəm. Bu prosesin gedişinə necə baxmağımızla əlaqəlidir. Bu prosesə müəyyən bir zaman kəsimində baxsanız haqlısınız. Amma geniş surətdə baxanda yanaşma fərqlidir. Baxın, 1944-cü ildə Krım tatarları kütləvi şəkildə sürgün edildilər. 1963-cü ildə sürgün olunmuş xalqlar bəraət alıb reabilitasiya olunub, öz yurdlarına dönsələr də, Krım tatarlarına bu haqq tanınmadı. Yəni tatarların öz vətəninə dönüşü əngəlləndi. Yalnız uzun illərdən sonra 1988-89-cu illərdə tatarlar Moskvada aksiyalar keçirərək öz haqlarını tələb etməyə başladılar və paralel olaraq pərakəndə şəkildə öz yurdlarına geri dönməyə başladılar. Bu iş sistemli deyildi, tatarlar sadəcə pərakəndə şəkildə Özbəkistandan və başqa respublikalardan Krıma qayıtmağa başladılar. Bu proses min bir əziyyətlə baş veridi.

O zaman da Krımda əsas çoxluq ruslar idi. Zatən Krımdan tatarların köçürülməsinin əsas hədəfi o bölgənin ruslaşdırılması idi. Əslində 1944-cü il Krım tatarlarının sürgün olunmasının son tarixidir. Ancaq Krım Rusiya tərəfindən ilhaq olunduqdan sonra yarımadadan sürəkli olaraq tatarların köçürülməsi baş verib. 1990-cı illərdən başlayaraq Krımın Rusiya tərəfindən ilhaqına qədər tatarlar davamlı olaraq təzyiq altında olublar.

***- Amma o zaman Krımda Ukrayna hakimiyyəti idi...***

- Fərq etmir. Ukrayna hakimiyyəti də olsa, orda tatarların haqları tam olaraq təmin edilməmişdi. Bu məsələyə ideal yanaşmaq lazım deyil, obyektiv olmaq lazımdır. Krım o zaman Ukrayna ərazisi olsa da, əslində yarımadanın əsl hakimiyyəti orda çoxluqda olan ruslarda idi. Onlar isə tatarlara çox da isti münasibət göstərmirdilər. Hər ərazinin alınması, hər məscidin tikilməsi, kəndə türklərin köçməsi üçün böyük bir mücadilə aparılırdı. Bu mübarizənin nəticəsi olaraq ortaya Krım Tatar Milli Məclisi adlandırılan bir qurum ortaya çıxmışdı. Ukrayna qanunlarına görə, bu əslində alternativ qurum, mübarizə üsuludur. Yəni bu mənada ruslar Krımın işğalından sonra orda yeni metod tətbiq etmirlər, sadəcə mövcud sistemi daha da sərtləşdirirlər. Çünki Rusiyadakı qanunlar Ukrayna qanunlarına görə daha sərtdir. İstər dini azadlıq, istərsə də milli hüquqların verilməsi baxımından rus qanunları daha sərtdir. Məsələn, Ukrayna hakimiyyəti dönəmində Krım tatarlar hərbi xidmətlərini yarımada ərazisində keçirirdilər. Ancaq indi Rusiyaya birləşdirildikdən sona onlar hərbi xidmətlərini Rusiyanın istənilən bölgəsində, o cümlədən Sibirdə keçirlər. Yəni şərtlər daha da çətinləşib. Üstəlik nəzərə alsaq ki, Rusiya işğalına əsas etiraz edənlər Krım tatarları idi, o zaman daha çox təzyiqlərin onlara qarşı olması gözlənilən idi. Yəni Krımda tatarların durumunu Türkiyənin siyasətindən çox Ukrayna və indi də Rusiyanın siyasəti ilə izah etmək lazımdır.

İkinci tərəfdən, Rusiyanın Türkiyənin ittiham etməsi absurddur. Çünki əgər o qədər demokratdırlarsa, ruslar işğaldan qabaq Putinin tatarlara verdiyi vədləri reallaşdırmalı idilər. Putinin verdiyi vədlərin heç biri reallaşdırılmadı. Aksiyonovu Krımın başına gətirdilər, halbuki seçkidə ən az - 4 faiz səs almışdı. Ancaq buna baxmayaraq ifrat radikal görüşləri olan birini Krımın rəhbərliyinə gətirdilər. Onlar isə təbii ki, zorakılığa dayanan siyasət yürüdürlər.

***- Ancaq həm də o da var ki, Krım tatarlarının Rusiya idarəsinə qarşı çıxmaları, müqavimət göstərmələri onlara qarşı təzyiqləri artırır. Məsələn, bu cür qurultaylar, "Müsəlman batalyonu" kimi layihələr rusları qəzəbləndirir.***

- Bunda Türkiyənin günahı yoxdur.

***- Aydındır, amma o da var ki, bu vəziyyət gərginliyi artırır və tatarların Krımdakı gələcək taleyini sual altında qoyur.***

- Burda əsas düyün nöqtəsi odur ki, tatarlar Krımı öz vətəni hesab edir, ruslar isə bu haqqı onlara tanımır. Belə olduğu zaman çatışma qaçılmazdır. Söhbət heç də liderlərdən, yəni Mustafa Cəmilevdən, Rıfat Çubarovdan getmir. Onları onsuz da Ukraynanın təbliğatın aparmaq ittihamı ilə yarımadaya buraxmırlar. Yəni əslində Krım tatarlarının əsas problemi hüquqla bağlıdır. Yəni indi onların hüquqları Ukrayna dönəmində olduğundan daha azdır. Yoxsa ki, tatarların maddi durumunda problem yoxdur, hətta indi Ukrayna dönəmindəkindən daha yaxşıdır.

***- Ankaranın tutumu nədir, bu proses belə davam edəcəkmi?***

- Ankara hazırda maksimum dərəcədə beynəlxalq şərtləri nəzərə almaqla hər iki tərəflə görüşərək, müzakirələrlə vəziyyəti dəyişməyə çalışır. Putinin sonuncu dəfə Türkiyəyə səfəri zamanı - 2014-cü il dekabrında - Ankarada bu məsələ gündəm gəmişdi. Həmin vaxt liderlərin mətbuat konfransında Ərdoğan "bizə vəd verdilər" deyərək danışıqlar zamanı Krımla bağlı rus tərəfinin verdiyi vədləri sadaladı.

Yəni Krım mövzusunda Rusiya verdiyi vədləri yerinə yetirmir, sonra isə Türkiyənin tənqidlərinə etiraz edir. Hətta diqqət edirsinizsə, Türkiyə məhz Krım tatarlarına görə, Rusiya mövzusunda ehtiyatlı davranır, Rusiyaya qarşı sanksiyalara qarışmır. Əsas gözlənti də odur ki, Rusiya tatarlar mövzusunda vədlərini yerinə yetirəcək. Çünki Krımda yaşayan 300 min tatarın taleyinə Türkiyə biganə deyil. Amma bunun üçün beynəlxalq səviyyədə Krım mövzusunu gündəmdə saxlayır, ikili görüşlərdə isə Rusiyadan bunu tələb edir. Ancaq silahlı yol, qarşıdurmaya aparan vasitələr məqbul deyil. "Müsəlman batalyonu" daha çox Ukraynanın təbliğat vasitəsi kimi görünür və əslində tatarlar üçün təhlükəli məsələdir.



**Kənan RÖVŞƏNOĞLU**
**Ankara**



# Ermənistan Rusiyanın tərkibinə keçir - Qarabağ problemi ilə birgə?

## Erməni politoloqun ilginc təklifi heç vaxt olmadığı qədər reallığa yaxındır; işğalçı ölkənin sərhədləri Rusiyanın sərhədlərinə çevrilsə, itirilmiş ərazilərimizə görə sorumlu birbaşa Moskva olacaq; Bakı daha bir fors-major vəziyyətlə üzləşə bilər...

**Ötən həftə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun ön cəbhədə olarkən verdiyi son Qarabağ bəyanatı dünya mediasında yetərincə ciddi əks-səda doğurdu. Xatırladaq ki, Zakir Həsənov ordunun işğal altındakı torpaqları qaytarmağa hazır olduğunu və vaxtın yetişdiyini bəyan eləmişdi.**

**Sitat:** "Artıq məqamı çatıb. Səbri tükənən xalqımız, öz doğma yurdlarından didərgin salınmış insanlarımız da bizdən hərəkətə keçib, ömür boyu Azərbaycana qarşı düşmənçilik mövqeyində olan işğalçıları torpaqlarımızdan çıxarmağı tələb edir. Beynəlxalq qurumlar tərəfindən münaqişəyə dair qəbul edilmiş bir çox qərarlar da haqq və ədalətin bizim tərəfimizdə olduğunu sübut edir. Silahlı Qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə hazırdır və qadirdir. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa edəcək. Buna heç kimin şübhəsi olmamalıdır".

**Zakir Həsənovun bu bəyanatı nüfuzlu "Bloomberg" agentliyindən tutmuş, Asiya ölkələrinin mediasına qədər işıqlandırıldı.** Türkiyənin "Hürriyet", Rusiyanın RİA-Novosti agentlikləri, "Kommersant" qəzeti müdafiə nazirinin bəyanatına geniş yer ayırdı. Hətta nazirin Ermənistana etdiyi xəbərdarlıqla bağlı "Kommersant" qəzeti və "Kommersant FM" radiostansiyası xüsusi reportaj hazırladı. "Bloomberg" agentliyində isə Zakir Həsənovun bəyanatından sonra Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verildi və qeyd olundu ki, son vaxtlar Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində gərginliyin artması Avropanı narahat etməyə başlayıb. Türkiyə mətbuatı isə nazirin bəyanatını "Qarabağı qaytarmağın vaxtı çatdı", "İşğalçı Ermənistan Qarabağdan çıxarılacaq" kimi başlıqlarla təqdim elədi.

*****

**Müdafiə nazirinin xəbərdarlıq xarakterli bəyanatına verilən bu reaksiya həll olunmamış Qarabağ ixtilafının dünya üçün, qardaş Türkiyədən ötrü kifayət qədər həssas məsələ olduğunun və özündə potensial müharibə riski daşımasının beynəlxalq birlik tərəfindən dərkinin aydın təzahürü idi.** Belədirsə, üstəlik dünya, Qərb ölkələri müharibələrdən yorulubsa, yenisini arzulamırsa, o zaman niyə də o, münaqişənin yoluna qoyulmasına, heç olmasa, ciddi bir irəliləyiş əldə edilməsinə nəhayət, yardımçı olmasın?

Əfsus ki, belə bir istək, hərəkətlilik müşahidə edilmir. Sanki Qərb dünyası arxayındır ki, Qarabağ münaqişəsi alovlanmayacaq, Azərbaycan bir az da Kremldən ehtiyat edərək, savaş variantına getməyəcək - heç olmasa, Rusiyaya bölgəyə müdaxilə üçün əlverişli şans verməmək üçün.

**Beləcə, Qarabağ məsələsində durğunluq dövrü acı bağırsaq kimi uzanır.** Həll olunmamış konflikt isə ilk növbədə Rusiyanın maraqlarına cavab verir, çünki belə vəziyyətdə Qərbin, NATO-nun bölgəyə daxil olması qeyri-mümkün hala gəlir, Azərbaycan və Ermənistanın Avroatlantik məkana inteqrasiya perspektivi sıfırlanmış olur, eyni zamanda Gürcüstanın Qərblə, NATO ilə yaxınlaşması prosesi ləngiyir.

Çünki nə qədər ki, Rusiyanın Güney Qafqazda hərbi mövcudluğuna son verilməyib, nə qədər ki, sonuncu Rusiya hərbi bazası da bölgədən çıxarılmayıb (Gümrü, Abxaziya, Cənubi Osetiya), şimal qonşumuz burada hegemonluğunu, monopolist mövqeyini saxlayacaq. Ona görə ki, divin canı şüşədə olduğu kimi, Kremlin canı da bölgədə yerləşdirdiyi qanuni-qanunsuz hərbi bazalardır.

*****

Bu bazalar qaldıqca və çoxaldıqca əks-proses gedəcək - Rusiya keçmiş SSRİ-ni yeni qiyafədə bərpa eləmək uçun daha da şirniklənəcək. Necə ki, müstəqilliyinin bütün əsas parametrlərini itirmiş Ermənistan artıq Rusiyanın ovcunun içindədir. Bu reallıq istər-istəməz erməni toplumun, onun siyasi elitasının ovqatına təsir edir, onlarda müstəqil yaşamaq potensialına şübhələr yaradır.



"Ermənistan tezliklə Rusiyanın tərkibinə daxil olmalıdır". Musavat.com-un məlumatına görə bu sözləri erməni ictimai xadimi, **Strateji İnkişaf İnstitutunun baş direktoru Andranik Nikoqosyan** deyib: "2015-ci ildən Ermənistan Avrasiya İqtisadi Birliyinin tam hüquqlu üzvü olub - bu, bütün dünyaya məlumdur. Rusiyada yaşadığım və bu prosesdə fəal iştirak elədiyim üçün açıq danışacağam: bizim Belarus, Qazaxıstan və Qırğızıstanla iqtisadi inkişafımızdan danışmağa dəyməz, ancaq Rusiya ilə bu, açıq-aşkardır. Sonralar nəticə necə olacaq, bəlli deyil, amma Ermənistanın Rusiya ilə iqtisadi əlaqələri davam edəcək. Ermənistan iqtisadiyyatının inkişafının hərəkətverici qüvvəsi Rusiya kapitalıdır".

**Onun fikrincə, Rusiya imperiya yaratmalı, keçmiş sovet respublikaları isə onun tərkibinə daxil olmalıdır.** "Ermənistan təhlükəli hadisələrdən kənarda qala bilməz, o, Rusiyanın tərkibinə daxil olmalıdır. Bu məsələni isə erməni xalqı özü, referendumla həll eləməlidir. Mən əminəm ki, bu birləşmə uzaqda deyil və günün birində Ermənistan Rusiyanın tərkibinə daxil olacaq - əgər Moskva buna etiraz eləməsə. O zaman Ermənistanın sərhədləri superdövlətin sərhədlərinə çevriləcək" - əlavə edib erməni ekspert.

*****

**Belə ovqat daşıyıcıları Ermənistanda az deyil.** Onsuz da Ermənistanın müstəqilliyi formal xarakter daşıyır. Bütün hallarda, qərarı təbii ki, erməni xalqı özü verməlidir: istəyər o, rəsmən Rusiyanın ucqar quberniyasına çevrilər, istəyər həqiqi müstəqillik uğrunda mübarizə aparar. Lakin ikinci halda o, demokratik dünyanın, Qərbin və nə qədər qəribə də olsa, qonşu ölkələrin, ələlxüsus da Türkiyə və Azərbaycanın köməyinə ciddi ehtiyac duyacaq. Kömək almaq üçün ilk növbədə qonşularla dil tapılmalı, onlara qarşı ərazi iddialarından əl çəkilməlidir. Erməni xalqı, onun ictimaiyyəti, siyasi elitası buna hazırdırmı?

Hazır deyilsə, demək, Nikoqosyanın təklif elədiyi variant qaçılmazdır - söhbət Jirinovskinin də ideya olaraq dəstəklədiyi Rusiya imperiyasının tərkibinə daxil olmaqdan gedir. Doğru, o zaman Ermənistanın xarici sərhədləri imperiyanın sərhədinə çevriləcək. Deməli, Azərbaycan torpaqlarını işğal edən tərəf də rəsmən Rusiya sayılacaq, Dağlıq Qarabağa görə sorumlu birbaşa Moskva olacaq.

**O zaman Kremlin neytral və ədalətli vasitəçiliyindən danışmaq mümkün olacaqmı? Qarabağ danışıqları necə olacaq bəs? Məsələ həm də bundadır. Bir şey dəqiqdir ki, Bakı daha bir fors-major vəziyyətə hazır olmalıdır.**

## "Azərbaycanın hədəfi Ermənistanı çökdürməkdir"


Ara Papyan

**"Azərbaycan Dağlıq Qarabağı qaytarmaq siyasətindən daha çox, Ermənistanı iqtisadi-siyasi cəhətdən çökdürən addımlar atmağa yönəlik siyasət aparır".**

Musavat.com-un məlumatına görə, bu sözləri İrəvanda İran-Ermənistan əməkdaşlığının perspektivlərindən danışarkən Ermənistanın Kanadadakı keçmiş səfiri, "Modus Vivendi" mərkəzinin analitiki Ara Papyan deyib.

Papyan Qarabağ probleminin dinc yolla həllinə inanmadığını da söyləyib: "Mənim buna inamım yoxdur. Dağlıq Qarabağ konflikti Azərbaycan üçün əslində bəhanə rolundadır. Onlar daha böyük hədəf üçün çalışırlar və bu, təkcə Bakının yox, həm də Ankaranın çalışdığı məsələdir. Azərbaycan və Türkiyə öz yolları üstündə duran Ermənistanı bir paz kimi çıxarıb atmaq istəyirlər" - qeyd edib erməni analitik.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



## Bakıda toyda 77 qonaq zəhərləndi

**Bakıda toyda kütləvi zəhərlənmə hadisəsi baş verib. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Liya Bayramova Oxu.Az-a bildirib ki, 8 avqust tarixində Binəqədi rayonunda yerləşən "Zəngəzur" şadlıq evində keçirilən toy mərasimində baş vermiş zəhərlənmə hadisəsində 77 nəfər zəhərlənən, o cümlədən 15 uşaq tibbi yardım almaq üçün tibb müəssisələrinə müraciət ediblər.**

Müraciət edənlər əsasən Kliniki Tibbi Mərkəzə və 7 nömrəli Uşaq Yoluxucu Xəstəxanasına yerləşdiriliblər, onlara müvafiq tibbi yardım göstərilib. Hazırda 41 nəfərin müalicəsi davam edir, onların vəziyyəti kafidir. Xəstələrin hamısına bütün zəruri tibbi yardım göstərilir, profilaktik tədbirlər görülür.

Xəstələrdən laborator müayinə üçün qusuntu və yuyuntu materialları götürülüb. Araşdırma zamanı müəyyən edilib ki, qida zəhərlənməsinə şübhəli məhsul kimi "paytaxt salatı" ehtimal olunur.

Hadisənin araşdırılması davam edir.

## Kəsdim, Vor, Cinayətkar, Şüşəbənd, Stəkan, Xiyarə...

### Azərbaycanda uşaqlara qoyulan adların yeni siyahısı hazırlanıb

**Nazirlər Kabineti yanında Terminologiya Komissiyası Azərbaycanda uşaqlara qoyulan adların siyahısını hazırlayıb. Bu barədə "Report"a komissiyanın sədr müavini Sayalı Sadıqova məlumat verib.**

O bildirib ki, adlar siyahısına AMEA-nın Dil Komissiyası baxandan sonra ictimaiyyətə açıqlanacaq: "Mövcud siyahı Ədliyyə Nazirliyindən alınıb. Belə ki, hər gün yeni adlar qoyulur və bu yeni adlar Ədliyyə Nazirliyində qeydiyyatdan keçir. Sentyabr ayında siyahı AMEA-nın Dil Komissiyasına baxış üçün veriləcək. Komissiyanın təsdiqindən sonra siyahı Ədliyyə Nazirliyinə qaytarılacaq".

**Ədliyyə Nazirliyindən Terminologiya Komissiyasına təqdim olunan siyahıya yenidən baxış keçirilib və anlaşılmaz olan, eyni zamanda gülüş doğuran adlar siyahıdan çıxarılıb:** "Araşdırmalardan sonra Kəsdim, Vor, Cinayətkar, Şüşəbənd, Stəkan, Xiyarə, Portağal, Limonə, Ansambl və başqa adlar siyahıdan çıxarıldı. Xiyarə adı qərb bölgəsində 4-5 qıza qoyulub. Kövsarə adı nisbətən anlaşıldığı üçün onu siyahıdan çıxarmadıq".

**Övladına ad qoymağın hər bir vətəndaşın hüququ olduğunu deyən S.Sadıqova hesab edir ki, valideynlər övladlarına ad qoyanda çox diqqətli olmalı və bu işə vicdanla yanaşmalıdırlar:** "Valideyn özündə məsuliyyət hiss etməlidir və adların ilk növbədə xalqın kimliyini özündə əks etdirdiyini unutmamalıdır".

Son dövrdə türk mənşəli, "Dədə Qorqud" dastanından gələn adların qoyulmasını müsbət hal kimi dəyərləndirən S.Sadıqova bildirib ki, bu, maarifləndirmənin nəticəsidir: "Hazırda valideynlər uşaqlarına "Hacı, Əfəndi" ilə başlayan ikipilləli adlar qoymur. Ancaq bəzi hallarda babada, nənədə varsa, bu cür adların qoyulmasını təkid edirlər".

**O bildirib ki, siyahıdan kənar adların qoyulması qadağan edilə bilməz, çünki xalqın yaradıcılığı sayəsində adlar sistemi daim inkişaf edir:** "Qəti qadağan etməklə deyil, maarifləndirməklə mənası olmayan, gülüş doğuran və iki-üçpilləli adların qoyulmasının qarşısını almaq lazımdır".

## 70 yaşlı həkim boğazını kəsdi



**Bakıda intihar hadisəsi baş verib. Sabunçu Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Sabunçu qəsəbəsi, Karqanov küçəsi ev 10 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan, 1945-ci il təvəllüdlü Eldar Qoca oğlu Piriyev yaşadığı evdə boğazını kəsib. O, çoxlu qan itirdiyindən hadisə yerindəcə dünyasını dəyişib.**

E.Piriyevin özünə qəsd etməsinin dəqiq səbəbləri barədə hələlik məlumat verilməsə də, onun əsəb xəstəliyindən əziyyət çəkdiyi bildirilib. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

Qeyd edək ki, E.Piriyev təqaüddə olan həkim olub.

## Bulvarda intihar hadisəsi baş verdi

**Bakıda intihar hadisəsi baş verib. "Report"un xəbərinə görə, hadisə Dənizkənarı Milli Parkda qeydə alınıb. Belə ki, Dənizkənarı Milli Parkda - "Saat qülləsi"nin yaxınlığında bir nəfər özünü dənizə ataraq intihar edib.**

İntihar edən şəxsin meyitini dənizdən xilasedicilər çıxarıb.

Hazırda ölənin şəxsiyyəti müəyyənləşdirilir.




**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Azərbaycanda 2521 maşın axtarışdadır

**Daxili İşlər Nazirliyi 2000-ci ildən bu yana Azərbaycanda itən maşınların siyahısını təqdim edib. Nazirliyin saytında verilən məlumatına görə, siyahıdan məlum olur ki, son 15 ildə Azərbaycanda ən çox maşın Bakının Nəsimi rayonunda itib. Siyahıda hətta 1988-ci ildən bu yana axtarışda olan maşınlara belə rast gəlinir. Siyahıya əsasən, hazırda ümumilikdə ölkə üzrə 2 521 maşın axtarılır.**

2000-ci ildən bu yana itmiş maşınların statistikasına əsasən, ən çox axtarılan maşınlar sırasında lider sovet istehsalı olan VAZ markalı avtomobillərdir. Belə ki, 138 ədəd VAZ 2106, 110 ədəd VAZ 2107, 50 ədəd digər VAZ 21-lər axtarılan maşınlar sırasında liderdilər. Daha 16 ədəd Mercedec, 9 ədəd Qazel, 8 ədəd VAZ 2121 (Niva) itmiş maşınlar sırasındadır. İtmiş maşın markaları sırasında az da olsa (1-2 ədəd) BMW, Hunday, Opel, Lexsus, Porşe və s. rast gəlmək olar.

Maşınlar Azərbaycan üzrə ən çox Bakının Nəsimi rayonunda (60) yoxa çıxıb. Bundan əlavə Binəqədidə 53, Nərimanovda 41, Yasamalda 39, Nizami rayonunda 36, Xətaidə 28, Səbayeldə 14, Xəzər rayonunda isə 13 maşın itib.

Azərbaycanın rayonlarında Kəpəz, Sumqayıt üzrə-5, Abşeron, Masallı, Nizami (Gəncə), Şirvan- 3, Lənkəran, Qusar, Xaçmaz, Kürdəmir- 2, Ağcabədi, Ağstafa, Astara, Beyləqan, Cəlilabad, Qəbələ Şamaxı, Mingəçevir, Oğuz, Tovuz rayonlarında isə hərəsində 1 maşın itkindir.

Siyahıya əsasən, ən çox maşın itməsi halı 2014-cü ildə 74 maşının yoxa çıxması ilə qeydə alınıb.

Məlumdur ki, müasir avtomobil oğruları qeyri-qanuni yolla əldə etdikləri maşınların tanınmaması üçün nəinki onların rəngini, ümumi görünüşünü hətta ban nömrələrini belə dəyişdirə bilirlər. Belə olduğu təqdirdə bəzi itmiş avtomobillərin tapılması mümkünlüyü sıfıra bərabərdir.



## Qadını maşınla vurub öldürən sürücü hadisə yerindən qaçdı

**Göyçay şəhərində avtomobil piyadanı vuraraq öldürüb. "Report"un xəbərinə görə, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi saytı məlumat yayıb.**

Belə ki, avqustun 10-da saat 01 radələrində Göyçay şəhərində müəyyən edilməmiş avtomobillə yolu keçən şəhər sakini Validə Əhmədova vurulub və o, hadisə yerində ölüb.

Göyçay Rayon Polis Şöbəsində (RPŞ) əməliyyat-axtarış tədbirləri aparılır.

YENİ MÜSAVAT
N 174 (6202) 11 avqust 2015

**Milliyyətcə rus olan Svetlana Pavlovna Məhəmmədova prezidentdən kömək istəyir. Redaksiyamıza ünvanladığı məktubunda S.Məhəmmədova yazır ki, insanlara inamının qurbanı olub. "Bank Standart"ın soyğunçuluq siyasəti isə onu intihar həddinə çatdırıb.**

# "Bank Standart"ın qarşısında özümü yandıracam"

## Ahıl qadın prezidentdən kömək istəyir; Svetlana Məhəmmədova: "Bank 45 min kreditin əvəzində 98 min manat pul tələb edir"

**S.Məhəmmədova yazır ki, başına gələnlərin ardıcıllığı belə olub:** "Xalidə Sərvər qızı Məlikova ilə çoxdan tanış idik. Yay aylarında onun Mərdəkandakı bağ evində anası Firuzə ilə birlikdə dincəlirdik. Xalidənin əri Tofik Məlikov neçə illər DİN də "OBXSS" deyilən bir qurumda çalışmışdı. Təmiz bir ailə ilə münasibətdən çox razı idim".

**S.Məhəmmədova yazır ki, X.Məlikovanın qızı və nəvələri Amerikada yaşayırlar:** "Kürəkəni demək olar ki, hər həftə onlara pul göndərirdi. Bir gün Xalidə Amerikaya getmək niyyətində olduğunu bildirdi. Dedi ki, bağı bankda girov qoyulub, ölkədən çıxa bilmir, bağını girovdan çıxarmağıma yardımçı olmağıma xahiş etdi. Qızı və kürəkənindən utandığı üçün bu barədə onlara heç nə demədiyini açıqladı. Dedi ki, evimi banka girov qoyub götürdüyü pulun bir hissəsini bağını girovluqdan azad etməyə sərf edəcək, qalan hissəsinə isə oranı təmir edib bağı satacaq. Əldə etdiyi pulla isə mənim evimi girovluqdan çıxaracaq və Amerikaya gedəcək. Ona son dərəcə inandığıma görə bu işə razı oldum".

**S.Məhəmmədova yazır ki, X.Məlikova onun evini girov qoymaqla "Bank Standart"dan 45 min 500 manat kredit alıb. Hər ay 2 min manat olmaqla banka bir müddət kredit ödəyib. Sonradan isə X.Məlikova ondan gizlənməyə və bankın kreditlərini ödəməməyə başlayıb:** "Günlərin birində bağın qapısının ağzına gələndə orada bir neçə nəfəri gördüm. Dedilər ki, Xalidə Məlikova bağı satıb, özü də qaçdığına görə axtarışa verilib. Məlum oldu ki, Xalidə mənim kimi bu adamların da evlərini, qızıllarını girov qoymaqla bankdan kredit götürüb. Qapıda olanlar dedilər ki, Xalidə Məlikova ölkədən çıxa bilməyəcək, çünki barəsində cinayət işi başlayıb, barəsində axtarış elan olub. Əgər sərhədə getsə, orada




dərhal həbs olunacaq. Sonradan bildim ki, onun barəsindəki axtarış işi 1 günlük dayandırılıb, Xalidə Məlikova Amerikaya uçub gedib və növbəti gün yenidən axtarış işi bərpa olunub. Hazırda Xalidə Məlikova İnterpol xətti ilə axtarışdadır. Onun Amerikadakı ev ünvanını da tapmışam, İnterpola zəng edib deyirəm, cavab verirlər ki, Xalidə Məlikova gəlsə onu tutacağıq".

**S.Məhəmmədova deyir ki, bundan sonra "Standart bank"a kredit götürülən 45 min 500 pulun əvəzinə 48 min manatdan yuxarı pul ödəyib. Bank isə faizləri hesablamaqla bu məbləği 98 min manata çatdırıb:** "Bankın sədr müavini Nərgiz xanım məni qəbul edib "faizləri yalnız məhkəmə və bank sədrinin özü ləğv edə bilər" dedi. Dünyanın harasıdır ki, 45 min kreditə görə 98 min alırlar? Belə də soyğunçuluq olar? Vəziyyətimi danışıb evdən çıxarıldığım təqdirdə bu qoca vaxtımda küçələrə düşməli olduğumu söylədim. Ondansa ölməyi üstün tuturam. Müavinə də dedim ki, əgər evdən çıxarılsam bankın qarşısında özümü yandıracağam. Müavini deyir ki, bu məsələni yalnız sədr həll edə bilər. Sədr isə heç kimi qəbul etmir. Bank məni məhkəməyə verib evdən çıxarılmağımı tələb edir. Artıq birinci instansiya bankın xeyrinə qərar çıxarıb. Avqustun 11-də Apelyasiya Məhkəməsi olacaq. Allaha dua edib bu müddət ərzində prezidentimizdən və onun xanımı Mehriban Əliyevadan kömək gözləyirəm. Məni üzləşdiyim bu facİədən onlar qurtara bilərlər".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bakıda kirayənişin qadın evi sahibinin əlindən aldı

## Vahid Məmmədov: "Ona dedim ki, evin "kupça"sı mənim adımadır, ev necə sənin ola bilər?"

**Səbayel rayon sakini Məmmədov Vahid Kərim oğlu evinin qanunsuz yolla əlindən alınmasından şikayət edir. Problemini ictimailəşdirmək üçün "Yeni Müsavat"a müraciət edən şikayətçi deyir ki, 2005-ci ildə Bayıl qəsəbəsində Xəlil adlı şəxsdən 70 kvadrata yaxın olan ikiotaqlı həyət evi alıb.**

Həmin şəxs evi ona satarkən mənzildə Rəna Babayeva adlı şəxs kirayənişin saxlayırmış. Vahid Məmmədovun başqa yerdə evi olduğu üçün Rənanın orada kirayəçi kimi qalmasına icazə verib.

Lakin 2005-ci ildə Vahid Məmmədov evinə köçmək istəyib və Rəna Babayevaya mənzili tərk etməli olduğunu bildirib. Lakin qadın onu şərləməklə hədələyib və evdən çıxmayacağını deyib. Bundan sonra başına gələnləri şikayətçi Vahid Məmmədov belə danışır: "Alanda evin hər bir sənədi var idi. Notariusda sənədləri, alqı-satqı müqaviləsini təsdiqlədib öz adıma keçirdim. Notariusun təsdiqi ilə ev üçün rus pulu ilə 62 milyon 400 rubl pul keçirdim. Öz evim olduğu üçün gec-gec nəzarət edirdim. Bir gün evi tərk etməsini istədim. O isə dedi ki, çıxmayacağam. Ev mənimdir. Mən də dedim ki, evin "kupça"sı mənim adımadır, ev necə sənin ola bilər? Məni hədələyərək dedi ki, hara gedirsən get, ev mənə məxsusdur. Qorxdum təzyiq göstərməyə ki, şər-böhtan atar. Ayda bir neçə dəfə gedib evimə kənardan baxırdım. Yaxınlaşmağa cəhd etmirdim ki, üzünü-başını cırar, mənə böhtan atar".






**Şikayətçinin sözlərinə görə, məsələni həll etmək üçün 2006-cı ildə Səbayel Rayon Məhkəməsinə şikayət edib:** "Məhkəmə qərar çıxardı ki, ev mənə məxsusdur. Sonra Rəna Babayeva apelyasiya şikayəti verdi. Səbayel məhkəməsinin keçmiş sədri İlham Ağayevin əli ilə, heç bir sənəd olmadan evi öz adına qeyri-qanuni keçirməyə müvəffəq oldu. Bir sözlə, Apelyasiya məhkəməsi onun xeyrinə qərar çıxardı".

**Vahid Məmmədov deyir ki, Rəna Babayeva onu qeydiyyatdan çıxarmaq üçün müxtəlif yalan və böhtanlara da əl atıb:** "2015-ci ildə Rəna Babayeva öz əməlindən əl çəkmədi. Bu dəfə İnzibati-İqtisad Məhkəməsinə verdi ki, məni qeydiyyatdan çıxarsınlar. Məhkəmə isə mənim xeyrimə qərar çıxardı. Rəna Babayeva Apelyasiya məhkəməsinə yenidən rüşvət verdi, məhkəmə yenə qərar çıxardı ki, ev onundur. Məhkəmədə hətta bir dəfə Rənaya dedim ki, artıq bezmişəm, gəl evi bölək sataq. Razılaşmadı. Bütün qonşular məni tanıyır. Evi nə vaxt aldığımı, kim olduğumu bilirlər. Nə qədər şahidlər var. Ancaq halal zəhmətimlə aldığım evi əlimdən qanunsuz yola alırlar".

**Şikayətçi məhkəmənin verdiyi qərarla razılaşa bilmir:** "Mənim qanuni qeydiyyatım var, notariusun təsdiqi ilə bütün sənədlər mənim adımadı. Başa düşə bilmirəm, bu necə qərardır. Alqı-satqı müqaviləm olub, "BT"-dən sənədlərim var, "kupçam" var. Məhkəmə necə belə qərar çıxara bilər? Bununla bağlı Apelyasiya Məhkəməsinə iki dəfə şikayət elədim, sənədlərimi geri qaytardılar. 7 vəkil dəyişdim. Hər vəkilə 800-1000 dollar pul vermişəm. Vəkillər hər dəfə işi yığır, iş mənim xeyrimə həll olunan məqamda kimlərsə onlara tapşırır, vəkillər geri durmağa məcbur olur".

**Vahid Məmmədov indi Respublika Baş Prokurorluğundan və Daxili İşlər Nazirliyindən məsələnin ədalətli şəkildə həll olunması üçün kömək istəyir.**

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**



# Müalicə Müəssisəsində əlil məhkuma divan tutublar

## Aygün Sultanova: "Raufun qulağından elə zərbə vurublar ki, 6-7 gündür ki, çörək yeyə bilmir"

**Əlil məhkum Rauf Yusif oğlu Sultanov Penitensiar Xidmətin Müalicə Müəssisəsində zorakılığa məruz qalıb. Bu haqda "Yeni Müsavat"a məhkumun anası Aygün Sultanova məlumat verib.**

"Avqustun 5-də Müalicə Müəssisəsinin tərbiyə işləri üzrə rəis müavini Elnur Abbasov Raufu yanına çağırıb. Deyib ki, burada qalmağın üçün 500 manat verməlisən. Rauf da deyib ki, bizdə o qədər pul yoxdur. Elnur Abbasov rəis müavini, rejim rəisi Əhməd Bayramovu çağırıb, əmr verib ki, Raufun əlini qandalla. O da Raufun əlinə qandalı elə vurub sıxıb ki, qollarında indi də qandalın yerləri qalıb. Əllərinin dərisi gömgöydür, əzilib, sümükləri görünür. Bundan sonra da Raufun qulağından elə zərbə vurublar ki, qulağından qan, çirk axır. Rauf 6-7 gündür ki, çörək yeyə bilmir, onu elektroşoka veriblər. Rauf da, mən də, atası da, qardaşı da hamımız 1-ci qrup əlilik. Allah bu qansızlığı yerdə qoymayacaq" deyə, məhkumun anası bildirib.

**A.Sultanova deyib ki, döyüləərək işgəncəyə məruz qoyulan oğlunu Şüvəlandakı 3 saylı İstintaq Təcridxanasına köçürüblər:** "Bizə Raufla görüş də vermirlər. Raufu o günə qoyublar ki, o çəliksiz yeriyə bilmir. Mən ədliyyə naziri Fikrət Məmmədova, Penitensiar Xidmətin rəisi Mədət Quliyevə, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Rəfael Mehdiyevə, ombudsman Elmira Süleymanovaya müraciət edərəm. Oğlumu döyüb işgəncə verənlər cəzalandırılsın, Raufu Müalicə Müəssisəsinə köçürüb müalicə etsinlər".

**Qeyd edək ki, R.Sultanov dələduzluqda ittiham edilərək həbs olunub. Hazırda Xəzər Rayon Məhkəməsində onun işi üzrə məhkəmə prosesi keçirilir. Proses zamanı məlum olub ki, əlilin həbsinə yol açan sənədlərdəki imzalar saxtalaşdırılıb. Məlum olub ki, R.Sultanovun əvəzindən ittiham aktında yazılanları qəbul etməsinin təsdiqi hesab olunan imza atılıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

N 174 (6202) 11 avqust 2015

# 46 saat uçaraq ad günü

Almaniyada yaşayan Sven Hagemier 26 yaşını qeyri-adi şəkildə qeyd edib. Yeni Zelandiyadan Avstraliyaya, oradan da Havay adalarına uçan Hagemier səyahət zamanı saat fərqi və Avstraliyadakı gün dəyişikliyi cizgisindən istifadə edərək ad gününü 24 saat əvəzinə 35 saat 25 dəqiqə olaraq qeyd edərək rekord qırıb. "Dünyanın ən uzun doğum günü" başlığı ilə "Ginnesin Rekordlar kitab"ına girən Hagemierin rekordu təyyarə biletləri ilə təsdiqlənib. Rekord səyahəti 13 saat 10 dəqiqə davam edib.






## Qırmızı rəngli meyvə və tərəvəzlərin faydaları

Qırmızı enerjinin rəngidir. Bu rəngdə olan meyvə və tərəvəzlər gündəlik qida menyumuzda mütləq olmalıdır. Meyvə və tərəvəzlər qırmızı rəngi likopen və antosiyan adlı maddələrdən alırlar. Pomidor, qreypfurt, qarpız, itburnu, turp və digər qırmızı rəngli qidaların ehtiva etdikləri likopen xərçəngin bir çox növündən qoruyucu funksiyanı yerinə yetirir. Likopen prostat vəzinin xərçəngi, həzm sistemi, döş, dəri xərçəngi xəstəliklərinə yaxalanma riskini 30-40 faiz azaltmağa qadirdir.

Xüsusilə pomidorun tərkibindəki likopen sağlamlıq üçün çox faydalıdır. Adətən tərəvəzləri bişirdikdə onların qida dəyərlərinin azaldığını və onların tərkibindəki vitaminlərlə mineralların itkiyə getdiklərini bilirik. Maraqlıdır ki, bu qanun pomidorun tərkibindəki likopen üçün keçərli deyil. Çünki pomidor bişdikcə onun tərkibindəki likopen orqanizm tərəfindən əmilməyə daha uyğun hala gəlir. Çiyələk, tut kimi meyvələrə qırmızı rəngi verən isə antosiyanin adlı maddədir. Bu maddənin funksiyası bir az fərqlidir. Belə ki, antosiyanin insan sağlamlığı üçün zərərli olan bakteriyaların inkişafına əngəl olur və onları məhv edir. Yaz aylarında çiyələk yeyərək ağcaqanadların daşıdıqları zərərli bakteriyaların təsirindən qoruna bilərsiniz.

# Sərxoş pilot uçuşa əngəl oldu

Oslodan Girit adasına gedəcək olan "Air Baltic" Hava Yollarına məxsus bir təyyarədə pilot və stüardessaların sərxoş olması səbəbi ilə uçuş qadağan edilib. Oslodan qalxmalı olan təyyarəyə 109 nəfər sərnişin mindikdən sonra stüardessalar hava şəraitinin pis olduğu və təyyarədə problem olduğu haqda anons ediblər. Aradan uzun müddət keçsə də, sərnişinlər təyyarədən endirilməyiblər. Bir müddət sonra hava yolu şirkəti pilotun və stüardessaların sərxoş olduğunu açıqlayıb. Gerçəyin ortaya çıxmasından sonra təyyarəyə gələn polislər pilotları və stüardessaları nəzarətə götürüblər. Başqa pilotların və stüardessaların çağırılmasından sonra 3 saat gecikmə ilə təyyarə yenidən havaya qalxıb. Hava yolu şirkət ilə bağlı yeni araşdırma başladılıb.





## 50 il sonra ilk plyaj

Yaponiyanın paytaxtı Tokioda 50 il sonra bir ilk baş verib. İstidən sıxılanlar 50 il sonra özlərini körfəzin sərin sularına atıblar. "Fuji" televiziya kanalından verilən açıqlamaya görə, uşaqlar həyatlarında ilk dəfə bu şansı əldə ediblər. Edogova bölgəsindəki Kasai Rinkai çimərliyi xalq üçün açılıb. İyul ayından etibarən istifadəyə verilən ilk çimərlik avqust ayının sonuna qədər, həftə sonu və tətil günlərində açıq olacaq. Lakin dəniz suyunun çirkli olması xalqı narahat edir. Şəhər kənarındakı plyajlar çirkli olduğu üçün 1960-cı ildən bəri bağlanmışdı. Mütəxəssislər dəniz suyu haqqında davamlı olaraq məlumat verirlər. Əgər tədbirlər işə yararsa növbəti ildə də müvəqqəti çimərliklər açılacaq.




QOÇ - Havaların qızmarlığını nəzərə alıb vaxtınızı əyləncə və istirahətə həsr edin. Çünki hansısa əməkdaşlıq və ya sövdələşmə uğursuz olacaq. Qonaqlıq və yeni tanışlıq üçün olduqca münasib vaxtdır.

BUĞA - Ulduzların düzümü yalnız maliyyə məsələlərində uğurlara yiyələnəcəyinizdən xəbər verir. İstənilən sövdələşmə və ya işbirliyi xeyrinizə olacaq. Risk etməkdən qorxmayın.

ƏKİZLƏR - Yaxşı olar ki, bürcünüz haqqındakı bu proqnozu oxuyan eşidən kimi səfərə çıxasınız. Sizin üçün darıxanların çox olduğunu nəzərə alıb tövsiyələrimizə əməl edin. Səs-küylü şəhərdə nə tapmısınız?!

XƏRÇƏNG - Astroloji göstəricilər əsəblərinizdə hələ də gərginlik olduğunu bəyan edir. Nəzərə alsaq ki Ay bürcünüzdədir, deməli, daha ehtiyatlı olmalısınız. Maddi baxımdan uğurlu ola bilər.

ŞİR - Həmişə olduğu kimi indi də ulduzlar maliyyə məsələlərində qənaətcil olmağınızı məsləhət görür. Gələcək planlarınızı düşünün. Nahardan sonra mütləq müqəddəs yerlərə baş çəkin.

QIZ - Bu gün sevdiyiniz adamlarla bir yerdə olmağınız sizə rahatlıq gətirəcək. Ötən dövrlərin nostaljisinə qapılmaqdansa nikbin nəzərlərlə gələcəyə baxmağınız məsləhətdir.

TƏRƏZİ - İştirakçısı olduğunuz görüşlərdə hövsələsizlik etməyin. Son vaxtlar təmkininizin pozulması ulduzların xoşuna gəlmir. Qeybət amilini isə özünüzdən qətiyyətlə uzaqlaşdırmalısınız.

ƏQRƏB - Bəxtinizdə sevgi dolu bir təqvim var. Odur ki, özünüzü məhəbbət ümmanına salmaqla daxili sıxıntılarınızı xeyli azalda bilərsiniz. Maliyyə uğursuzluqlarına görə narahat olmayın.

OXATAN - Uğurlu tarix hesab etmək olar. Hansısa gərginlik və ya münaqişə gözlənilmir. Deməli, nəzərdə tutduğunuz vəzifələrin əksəriyyətini reallaşdırmaqda da problemlə üzləşməyəcəksiniz.

OĞLAQ - Yay olmasına baxmayaraq, istirahətdən daha çox fəaliyyətə yer ayırmalısınız. Çünki təxminən saat 12-dən sonra şəxsi işlərinizdə əsaslı dönüş yarana bilər. Bu yönümdə sizə dəstək də veriləcək.

SUTÖKƏN - Sevgi-ailə münasibətlərində müəyyən mübahisələr gözlənildiyindən bəri başdan buna hazır olmalısınız. Əmin olun ki, bütün münaqişələri yalnız siz yoluna qoya bilərsiniz.

BALIQLAR - Avqustun bu qaynar günündə bütün vacib işlərinizi saat 16-ya qədər başa çatdırmağa çalışın. Çünki sonrakı ərəfədə bütün cəhdləriniz boşa çıxa bilər. İnsanlarla xoş davranın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Gənc yaşda evlənmək əyyaşlıq riskini azaldır



Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, 23 ilə 32 yaşlar arasında evlənən kişilərin spirtli içkidən istifadə etməsi azalır. Mütəxəssislərə görə, bu azalma evliliyin məsuliyyət tələb etməsi ilə əlaqədardır. Xüsusi ilə çalışan və çox içki içən gənclər arasında aparılan araşdırmada 844 nəfər iştirak edib. Araşdırma nəticəsində məlum olub ki, subay ikən içki məclislərində 4 qədəh içki içənlər, evləndikdən sonra 2,5 qədəh içki içirlər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300